QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 066 (5538) 7 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**




# Qüdrətli Azərbaycan naminə "İlhamla İrəli"!



4

**Məhəmməd Cavad Zərif: Azərbaycan-İran əlaqələri mümkün olal biləcək ən yüksək səviyyəyə çatıb**



11

**Musa Qasımlı: "Azərbaycanın beynəlxalq nüfuzu artıb"**



4

**AVCİYA Prezident seçkiləri ilə bağlı Aralıq Hesabatı təqdim edib**







## Rəsmi xronika

Prezident İlham Əliyev Lənkəran şəhərində Olimpiya İdman Kompleksinin tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Lerik şəhərinin su təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Salman Musayevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.


# İlham Əliyev: "Tərəfdaşlarımızla fikir ayrılıqları münasibətlərimizin strateji xarakterinə təsir göstərmir"



Ölkəmizdə yürüdülən mühüm siyasi vektorlardan biri də xarici siyasətdir ki, ölkə Prezidenti İlham Əliyev Cənabları bu istiqamətdə mühüm addımlarını atmaqdadır. Belə ki, hətta tərəfdaşlar arasında fikir ayrılıqları olmasına rəğmən, münasibətlərin tənzimlənməsi baxımından əhəmiyyətli amillər qorunub-saxlanılmaqdadır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevi bununla bağlı vurğulayıb ki, bu münasibətlərin başlıca, strateji xarakterini, bu münasibətlərin həm bizim üçün, həm də tərəfdaşlarımız üçün əhəmiyyətini görməyə və nəticəyə yönəlməyə mane olmur. SİTAT: "Biz öz xarici siyasətimizi lap əvvəldən elə planlaşdırmamışıq ki, o, çoxvektorlu və ya hamı üçün məqbul olsun. Bizim ənənəvi tərəfdaşlarımızla prinsipial xarakterli bir sıra məsələlər barəsində fikir ayrılıqları az deyil. Lakin bu, münasibətlərin başlıca, strateji xarakterini, bu münasibətlərin həm bizim üçün, həm də tərəfdaşlarımız üçün əhəmiyyətini görməyə və nəticəyə yönəlməyə mane olmur".

Prezident İlham Əliyev, həmçinin, bildirib ki, Azərbaycan Avropa strukturlarında fəal iştirak edir və öz mənafelərini qoruyur: "Deməliyəm ki, biz beynəlxalq arenada böyük etimad qazanmışıq və bizimlə razılaşmaya bilərlər. Lakin düşünürəm ki, bizə hörmət edir və etimad bəsləyirlər. Bir daha deyirəm, bizim milli maraqlarımız ondan ibarətdir ki, bütün ölkələrlə münasibətlərimiz yaxşı olsun, lakin bu, hansısa birtərəfli güzəştlər hesabına deyil, məhz konkret nəticələrə yönəlmiş səmərəli əməkdaşlıq siyasəti nəticəsində əldə edilməlidir. Məncə, bunun nəticəsi ondan ibarətdir ki, Azərbaycan həm müsəlman dünyasında çox güclü mövqeyə malikdir, həm də Avropa strukturlarında fəal iştirak edir və öz mənafelərini qoruyur. Bizim qonşularla çox yaxşı və sıx, mehriban münasibətlərimiz var, onlar da bizə yaxşı münasibət bəsləyirlər. Buna görə də, bizim xarici siyasətimizdə hələ yaxşılaşdırılmalı və ya düzəliş edilməli olan istiqamətlər qalmayıb. Məncə, əsas vəzifə bu müsbət inkişaf vektorunu qoruyub-saxlamaqdır. Bu, regional sabitliyin möhkəmləndirilməsinə şərait yaradacaq".

**_Rövşən RƏSULOV_**

# Prezident İlham Əliyev "AITF-2018" XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ilə tanış olub

















***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 6-da Bakı Ekspo Mərkəzində "AITF-2018" XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və "HOREX Caucasus-2018" XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar.***

AZƏRTAC xəbər verir ki, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev sərgilər barədə dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərgilərin pavilyonları ilə tanış oldular.

Bildirildi ki, Azərbaycanda turizm sənayesi ildən-ilə inkişaf edir. 2017-ci ildə ölkəmizə gələn turistlərin sayı 20 faiz artıb. Ötən ilin ilk üç ayı ilə müqayisədə bu ilin müvafiq dövründə artım 12,5 faiz təşkil edib. Bir sıra ölkələrin vətəndaşları üçün 2016-cı ildən etibarən hava limanlarında sadələşdirilmiş viza rəsmiləşdirilməsinə başlanılması Azərbaycana səyahət edən xarici turistlərin sayını əhəmiyyətli dərəcədə artırıb. Bu gün ölkəmizə xarici turistlərin daha rahat səfər etmələri üçün müvafiq işlər görülür.

"Bütün dünya - bir sərgi" şüarı altında keçirilən "AITF-2018" sərgisində 20 ölkəni təmsil edən 277 şirkət iştirak edir. Eyni zamanda, ziyarətçilər 90-dan çox xarici turizm istiqaməti, eləcə də ölkə daxilində istirahət imkanları ilə tanış olurlar. Sərgidə müxtəlif turizm istiqamətləri, hava yolları və otel şəbəkələri, eləcə də turizm sahəsi üzrə digər xidmət növləri təqdim edilir. İştirakçılar arasında Azərbaycan, Bolqarıstan, Çex, Dominikan, Gürcüstan, İndoneziya, İtaliya, İsveçrə, Mərakeş, Rusiya, Sloveniya, Tailand, Türkiyə və digər ölkələri təmsil edən şirkətlər yer alır. Bu il, həmçinin Şərqi Yava (İndoneziya) sərginin debütantıdır.

"AITF" ilə birlikdə "HOREX Caucasus-2018" XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgisi də keçirilir. "HOREX Caucasus-2018" regionun otel və restoran sektorunun yeganə ixtisaslaşdırılmış sərgisidir.

# İlham Əliyev: “Azərbaycan iqtisadi baxımdan özünü tamamilə təmin edən və ciddi iqtisadi çətinliyi olmayan ölkədir”

***Azərbaycanın özünü tamamilə təmin edən və ciddi iqtisadi çətinliyi olmayan ölkə olmasını beynəlxalq aləm də qəbul edir. Belə ki, Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsindən də görmək mümkündür.***



Ölkə başçısı bildirib ki, Azərbaycan dövlətinin fəaliyyəti fəaliyyətimizin başlıca istiqamətlərindən biri, iqtisadi müstəqilliyin tam təmin edilməsi olub, bu, siyasi müstəqilliyin əsasıdır. SİTAT: “Ona görə ki, əgər ölkə iqtisadi cəhətdən asılıdırsa, onda müstəqil siyasət həyata keçirməkdə böyük çətinliklərlə üzləşə bilər və çox vaxt üzləşir. Buna görə də, bu, bizim fəaliyyətimizin başlıca istiqaməti olub və bu gün Azərbaycan iqtisadi baxımdan özünü tamamilə təmin edən və heç bir iqtisadi çətinliyi olmayan ölkədir. Bir neçə rəqəm göstərə bilərəm: son 15 ildə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb, zənnimcə, bu, dünya rekordudur. Çox böyük investisiya layihələrinə baxmayaraq, bizdə xarici borcun sabitləşdirilməsi üzrə də iş aparılıb. Bu gün xarici borc ümumi daxili məhsulun təxminən 20 faizinə bərabərdir. Mən qarşıdakı illərdə bu borcun xeyli azaldılması barədə göstərişlər vermişəm. Azərbaycanın valyuta ehtiyatlarının həcmi ümumi daxili məhsulun həcminə bərabərdir. Başqa sözlə desək, biz istəsək, bir neçə gün və ya bir neçə ay ərzində bütün borcları ödəyə bilərik. Azərbaycanın maliyyə vəziyyəti kifayət qədər sabitdir və bizim həyata keçirdiyimiz investisiya layihələri, əlbəttə ki, əlavə mənfəət gətirəcək. Onu da qeyd etməliyəm ki, son 15 ildə Azərbaycan iqtisadiyyatına 230 milyard dollardan artıq sərmayə qoyulub.”

Dövlət başçısı, həmçinin, bildirib ki, bu gün Azərbaycan Ordusu dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasındadır. Belə ki, müxtəlif reytinqlər tərtib edən beynəlxalq ekspertlərin və təşkilatların hesablamalarına görə, bu gün Azərbaycan Ordusu dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasına daxildir. SİTAT: “Biz silahların yenilənməsi prosesini, praktiki olaraq, başa çatdırmışıq. Ordumuz həm hücum, həm də müdafiə xarakterli ən müasir, yüksək dəqiqliyə malik texnoloji silahlarla təchiz olunub. Biz silahları ən yaxşı istehsalçılardan alırıq və bu silahlar bizə özümüzü yetərincə inamlı hiss etmək imkanı verir. Təbii ki, təkcə silahlanma sayəsində güclü ordu yaratmaq olmaz. Buna görə, əlbəttə, ordumuzun döyüş qabiliyyətinin artırılması, intizamın möhkəmləndirilməsi üçün çox iş görülüb. Əlbəttə ki, çoxsaylı təlimlər və treninqlər bizdə, hələlik, mövcud olan çatışmazlıqları göstərir. Biz Silahlı Qüvvələrin maddi-texniki bazasını xeyli möhkəmlətmişik. Bizim bütün hərbi bazalarımızın və hərbi şəhərciklərimizin 80 faizindən çoxu, əslində, yenidən inşa edilib. Qarşıdakı illərdə biz maddi-texniki baza ilə bağlı prosesi tam başa çatdıracağıq. Təbii ki, qarşıdakı illərdə biz hərbi quruculuq işi ilə fəal məşğul olacağıq”.

Ölkə başçısı, eyni zamanda, vurğulayıb ki, Azərbaycan silah ixrac edən ölkəyə çevrilib. Belə ki, 10 il bundan əvvəl, dövlət başçısının təşəbbüsü ilə Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Ona görə ki, o vaxta qədər bizdə çoxsaylı hərbi məhsullar istehsal edilib: “ Bu gün isə belə məhsulları, nəinki istehsal edir, həm də ixrac edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Bu məhsullar beynəlxalq standartlara uyğundur və bizim bir sıra göstəricilər üzrə idxaldan asılılığımızı azaldır, həmçinin, yaxşı ixrac potensialı yaradır. Belə ki, Azərbaycan silah ixrac edən ölkəyə çevrilir”.

Bütün bu kimi faktorlar, belə deməyə əsas verir ki, ölkəmizin inkişafı əmin əllərdədir və bu inikişaf, bütün mənalarda, Azərbaycanın tərəqqisinə doğru atılan mötəbər addımlardan biridir.

***Rövşən RƏSULOV***

# AVCİYA Prezident seçkiləri ilə bağlı Aralıq Hesabatı təqdim edib

Dünən Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının 11 aprel prezident seçkilərinin müşahidəsi ilə bağlı aralıq hesabat tədbiri keçirilib. SİA-nın verdiyi məlumata görə, Seçki qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı deyib ki, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Seçki Qərargahının Aralıq Hesabatı 05 fevral-06 aprel 2018-ci il dövrü əhatə edir: “Hesabatda “İctimai-siyasi mühit”, “Söz və mətbuat azadlığı”, “Sərbəst toplaşmaq azadlığı”, “Namizədlərin irəli sürülməsi, qeydə alınması”, “Seçici siyahıları, Seçki administrasiyasının fəaliyyəti”, “Təbliğat və təşviqat kampaniyası”nın monitorinqinin nəticələri öz əksini tapıb. Hesabatda həmçinin AVCİYA haqqında məlumat və AVCİYA tərəfindən aparılan KİV-in monitorinqinin nəticələri də yer alıb”.

O bildirib ki, monitorinqin keçirildiyi dövrdə - müstəqil qəzetlərdə seçki xəbərləri ümumi xəbərlərin 13,27%-ni, müstəqil teleqraf agentliklərində 13,65%-ni, iqtidar qəzetlərində 17,62%-ni, müxalifət qəzetlərində 9,84%-ni təşkil edib: “Müstəqil qəzetlər içərisində



“Bakı xəbər” qəzeti (51,67%), müxalifət qəzetlərindən “Yeni Müsavat” qəzeti (50%), iqtidar qəzetlərindən “Azərbaycan” qəzeti (50,82%) öz səhifələrində seçki xəbərlərinə daha çox yer ayırıblar. APA və TREND informasiya agentliklərinin bu sahədə göstəriciləri eynidir (50%)

Hesabatda qeyd olunur ki, seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı Mərkəzi Seçki Komissiyasının fəaliyyətini qənaətbəxş qiymətləndirmək olar. MSK-nın gördüyü bütün işlər fəaliyyət proqramında göstərilən müddətlərdə, vaxtında həyata keçirilib. MSK tərəfindən seçki maarifçiliyinə aid bir sıra tədbirlər həyata keçirilib, müxtəlif vəsaitlər, seçki plakatları çap olunaraq yayılıb. Azərbaycan Respublikası Prezidentliyinə namizədlərin irəli sürülməsi və imzatoplama kampaniyası Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə həyata keçirilib və kənar müdaxilələr qeydə alınmayıb. Seçkilər ərəfəsində və seçkilər elan olunduqdan sonra sərbəst toplaşmaq azadlığı, söz və mətbuat azadlığı sahəsində hər hansı problemlər müşahidə edilməyib. KİV-in və jurnalistlərin fəaliyyətinə hər hansı müdaxilə və təzyiq faktları qeydə alınmayıb. Vətəndaş cəmiyyəti institutlarının seçki maarifçiliyi, seçkilərin monitorinqi və müşahidəsinə hazırlıq fəaliyyətlərinə, paytaxt və regionlarda seçicilərlə görüşlərinə və tədbirlərin təşkilinə hər hansı müdaxilə və əngəllər müşahidə edilməyib.

AVCİYA Seçki Qərargahının müxtəlif sahələrdə apardığı monitorinqin nəticələri göstərir ki, 11 aprel Prezident seçkiləri ərəfəsində ictimai-siyasi vəziyyət, seçicilərin fəallığı, mövcud qanunvericilik və digər amillər ölkədə demokratik və şəffaf seçkilərin keçirilməsinə tam imkan verir”.

## Məhəmməd Cavad Zərif: Azərbaycan-İran əlaqələri mümkün ola biləcək ən yüksək səviyyəyə çatıb



Son 26 ildə Azərbaycan ilə İran arasındakı əlaqələr indiyədək mümkün ola biləcək ən yüksək səviyyəyə çatıb. Bunu İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif deyib.

Əlaqələrimizin yüksək səviyyəsindən məmnunluğunu dilə gətirən xarici işlər naziri İran Prezidenti Həsən Ruhaninin Azərbaycana son səfərinə diqqət çəkib: “Prezident Həsən Ruhaninin Azərbaycana səfəri olduqca uğurlu keçdi. Hər iki ölkə mühüm layihələr üzərində işləyir. Bu layihələrdən birinə Xəzər dənizində birgə əməkdaşlıq daxildir. Biz, eyni zamanda, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizində uğurlu əməkdaşlıq edirik. Hər iki ölkə faydalı əməkdaşlıq nümayiş etdirir. Üçtərəfli formatda Azərbaycan-İran-Türkiyə, eləcə də Azərbaycan-Gürcüstan-Türkiyə-İran dördtərəfli əməkdaşlığı da yüksək səviyyədə davam edir. Biz bu əlaqələri daha geniş məcrada inkişaf etdirməyi səbirsizliklə gözləyirik”.

# Xalq İlham Əliyevə “HƏ” deyir!



## Lerik rayonunda seçicilərlə izdihamlı görüş keçirilib

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Lerik rayon şöbəsi YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri davam etdirir. Kampaniya çərçivəsində rayon mərkəzində izdihamlı mitinq-görüş keçirilib. Tədbirdə çıxış edən Milli Məclisin duputatı İqbal Məmmədov bildirib ki, seçicilərlə görüşlərdə aydın olur ki, hər bir seçici partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlı, ən azı Onu təbliğ etməyə gedən insanlar qədər məlumatlıdır və dəqiq mövqeyə malikdir: “Bu, Azərbaycan xalqının mövqeyidir. Son 15 il ərzində Cənab Prezidentin fəaliyyəti Azərbaycan xalqının gözləri önündədir. Ölkə rəhbərinin fəaliyyətinin şəffaf olması, Onun gördüyü işlərin böyüklüyü, xalqın isə bu barədə yetərincə məlumatlı olması Cənab Prezidentin xüsusi təbliğata ehtiyacının olmadığını göstərir. Dövlət başçısı Öz təbliğatını əməlləri ilə yüksək səviyyədə təşkil edib. Buna görə də, hesab edirik ki, Cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz namizədidir”.

Görüş-mitinqdə “Səs” qəzetinin Baş redaktoru Bəhruz Quliyev çıxış edərək bildirib ki, ötən 15 il ərzində dövlət başçısının reytinqi xalq arasında əhəmiyyətli dərəcədə yüksəlməkdə davam edib: “Bu sosial-siyasi göstərici ölkə rəhbərinin effektiv fəaliyyətinin nəticəsidir. Bütün bunların nəticəsi kimi, 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevin parlaq qələbə qazanacağı heç kəsdə şübhə doğurmur”. Bəhruz Quliyev lerikli seçiciləri firəvan gələcək naminə seçkilərdə fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb. Tədbirdə YAP Lerik rayon təşkilatının təbliğat qrupunun üzvləri Cəlil Baxşıyev, H.Başirov, E.Qənbərov və digərləri çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən bəhs ediblər. Natiqlər Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin növbəti dəfə əzəmətli qələbə qazanacağına inandıqlarını bildiriblər. Tədbir konsert proqramı ilə davam etdirilib.





## Ucarlıların seçimi dəyişməzdir



Dünən prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi zirvə görüşü-mitinq keçirib. Mintinqdə rayon sakinləri, ziyalılar, qadınlar, gənclər və ağsaqqallar aktiv iştirak ediblər.

Mintinqi giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq, bildirdi ki, qüdrətlənən Azərbaycanın daha bir əhəmiyyətli hadisə ərəfəsindədir. Şəhla Abdullayeva bir neçə gündən sonra xalqımızın növbəti dəfə prezident seçkilərində iştirak edəcəyini bildirərək, ölkədə mövcud olan xalq və iqtidar birliyinin hökm sürdüyünü diqqətə çatdırıb: “Azərbaycan vətəndaşları irəli sürülən bütün təşəbbüsləri dəstəkləyir, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə, həyata keçirilən siyasətə inam və etimadlarını nümayiş etdirirlər. Bu gün ölkəmizdə mövcud olan sabitlik, güclü iqtisadiyyat gələcək inkişafın əsasını təşkil edir”. Şəhla Abdullayeva bu uğurların davamlı olması üçün ucarlı seçiciləri partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Təbliğat qrupunun üzvləri Milli Məclisin deputatı Vüsal Hüseynov, Bakı Dövlət Universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda aparıcı elmi işçi, əməkdar müəllim Nadir Süleymanov, Yaqut Zeynalova, Rahib Rəsulov və Alı Babayev çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənablarının rəhbərliyi altında 2003-2018-ci illərdə müstəqil Azərbaycanımızın qazandığı möhtəşəm tarixi nailiyyətlər haqqında ətraflı məlumat verərək, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi, Cənab İlham Əliyevə səs verməyə çağırdılar.






Ardı Səh. 6




səs ®
w w w . s e s q a z e t i . a z
facebook Ses Media Holding
7 aprel 2018-ci il

# Xalq İlham Əliyevə “HƏ” deyir!

## Qaxlılar xoşbəxt gələcəklərinin təminatçısına səs verəcəklər







Əvvəli-Səh-5

11 aprel prezident seçkilərində YAP Mərkəzi Seçki Qərargahının Qax rayon şöbəsinin təbliğat qrupu təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü dünən rayon səhiyyə işçiləri ilə keçirib.

Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahı Qax rayon şöbəsinin sədri Nizami Əhmədov qeyd etdi ki, keçən 15 il ərzində Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə aparılan kompleks tədbirlər nəticəsində, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir, ölkəmizin beynəlxalq aləmdə nüfuzu gündən-günə yüksəlir, iqtisadiyyatımızda dinamik inkişaf təmin edilir. Bu inkişafı müdrik Azərbaycan xalqı heç vaxt unutmayacaq və öz rəğbətini 11 apreldə seçki məntəqələrinə gələrək bildirəcəklər.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Azər Kərimli, təbliğat-təşviqat qrupunun üzvü Tərlan Əhmədzadə vurğuladılar ki, “Mən bütün azərbaycanlıların Prezidenti olacağam” deyən Prezidentimizin müdrik, inamlı, son dərəcə cəsarətli daxili və xarici siyasəti nəticəsində, ölkəmiz bütün sahələrdə dinamik şəkildə inkişaf edir, əhalinin sosial rifahı gündən-günə yaxşılaşır, iqtisadi-siyasi sabitlik dönməz xarakter alır, Vətənimizin siyasi-iqtisadi nüfuzu və çəkisi ildən-ilə artır. Azərbaycan vətəndaşları bu gün Prezident İlham Əliyevə böyük etimad bəsləyir, Onun siyasi kursunu, birmənalı şəkildə dəstəkləyirlər. Azərbaycanın siyasi mühitində Cənab İlham Əliyevlə rəqabət apara biləcək hər hansı bir siyasətçi yoxdur və belə görünür ki, yaxın illərdə heç olmayacaqdır da. Bu gün Prezident İlham Əliyevə olan geniş beynəlxalq rəğbət, həm də Azərbaycanın nüfuzunun yüksəlməsinə şərait yaradır. Biz əminik ki, Qax seçiciləri də öz səslərini Cənab İlham Əliyevə verəcəklər.

Görüşdə çıxış edən seçicilərdən Cəmaləddin Hacıyev, Mədinə Süleymanova, Valeh İsayev və başqaları qeyd etdilər ki, xalqımız kimi, biz qaxlıların, bütün YAP üzvlərinin yekdil rəyi belədir - “İlhamla irəli”: Xoşbəxt gələcəyimizin və qələbələrimizin təminatçısı yalnız Azərbaycan Respublikamızın Prezidenti Cənab İlham Əliyevdir və biz öz Prezidentimizlə daim birlikdəyik!

## Balakən seçiciləri iqtisadi inkişafa səs verəcəklər

Dünən YAP Mərkəzi Seçki Qərargahı Qax rayon şöbəsinin təbliğat qrupu Balakən rayonunun İtitala kəndində seçicilərlə növbəti görüş keçirib. Görüşü YAP Mərkəzi Seçki Qərargahı Qax rayon şöbəsinin sədri Azad Balayev giriş sözü ilə açaraq, Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil Azərbaycanın inkişafı naminə gördüyü işlərdən, həyata keçirilən qlobal layihələrdən, regionların sosial-iqtisadi inkişafından geniş söhbət açdı. O, çıxışında seçiciləri prezident seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Tədbirdə kənd seçiciləri Şərif Alqayev, Samrat Qurbanəliyeva, İtitala kənd müəllimləri adından müəllimə Lamiyə Əliyeva və ilk dəfə səs verən Alagöz Mustafayeva bildirdilər ki, seçkilərdə fəal iştirak edəcək və 11 aprel günü Balakən seçiciləri üçün bayrama çevriləcək, hamılıqla Cənab İlham Əliyevə səs verəcəyik.

Görüşdə Milli Məclisin üzvləri Nəsib Məhəməliyev və Kamilə Əliyeva çıxış edərək, Prezident İlham Əliyevin xalq və dövlət üçün gördüyü böyük işlərdən danışdılar və seçiləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırdılar.





## Zərdab seçiciləri “İlhamla irəli” deyir






Yeni Azərbaycan Partiyasının Zərdab rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Növbəti görüş Zərdab şəhər kənd təsərrüfatı və digər xidmət təşkilatlarında çalışan seçicilərlə keçirib. Görüşü YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə 2003-cü ildən bu günədək həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, aparılan uğurlu daxili və xarici siyasətdən bəhs edib. O, Cənab İlham Əliyevin yeni əsrin yeni lideri olduğunu vurğulayaraq, seçiciləri 11 apreldə seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat qrupunun üzvü, AMEA prezidentinin müşaviri, professor Qərib Məmmədov çıxış edərək, Azərbaycanda bütün sahələrdə sürətli inkişaf getdiyini diqqətə çatdırıb. Prezident İlham Əliyevin bütün məqsədyönlü fəaliyyətini Azərbaycan xalqının xoşbəxt gələcəyinə həsr etdiyini vurğulayan natiq budəfəki prezident seçkilərinin də demokratik şəraitdə, ədalətli keçiriləcəyinə, xalqın bu prosesdə fəallıq nümayiş etdirərək, layiqli namizədimiz Cənab İlham Əliyevə səs verəcəyinə əminliyini ifadə edib.

Təbliğat qrupunun digər üzvü, Milli Məclisin deputatı Jalə Əliyeva çıxışında Cənab İlham Əliyevin Prezidentliyi dövründə ölkədə aparılan uğurlu siyasətdən və dinamik iqtisadi inkişafdan ətraflı söhbət açıb. O, Azərbaycan xalqının ümid yerinin, məhz Cənab İlham Əliyev olduğunu diqqətə çatdırıb və Onun növbəti dəfə də xalqın istəyi ilə Prezident seçiləcəyinə əminliyini bildirib.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Vüsalə Kərimova, Mübariz Umarov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən bəhs ediblər. Onlar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin növbəti dəfə əzəmətli qələbə qazanacağına inandıqlarını bildiriblər. Görüşdə seçicilər adından çıxış edən Fiqura Abbasova vurğulayıb ki, zərdablılar həmişə dövlətə, dövlətçiliyə, Prezidentimiz Cənab İlham Əliyevə öz sədaqətlərini göstəriblər. Tədbirdə seçicilər adından çıxış edənlər bildiriblər ki, seçki günü, hamılıqla seçki məntəqələrinə gələcək və xalqımızın layiqli oğluna - İlham Əliyevə səs verəcəklər. Çünki Cənab İlham Əliyevə səs vermək - yüksəlişə, inkişafa, tərəqqiyə və sabitliyə səs vermək deməkdir.

## Şəki seçiciləri Cənab İlham Əliyevə “HƏ” deyir







11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 7000-dən çox əhalisi və 4233 nəfər seçicisi olan Şəki rayonu Kiş kəndində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə seçicilərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü titanik işlərdən danışıb. Bildirib ki, Prezident İlham Əliyevin müdrik, məqsədyönlü siyasəti nəticəsində, son 15 ildə Azərbaycan çox böyük uğurlara imza atıb. O, əmin olduğunu bildirib ki, Şəki şəhər Kiş kənd seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Görüşdə YAP Siyasi Şurasının üzvü, millət vəkili, Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, ADPU-nun Şəki filialının rektoru Rafiq Rəsulov və YAP fəalı Kamil Məmmədov çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin həyat və fəaliyyəti, eyni zamanda, ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə sonsuz xidmətləri barədə ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Tədbirdə çıxış edən 4 nəfər kənd sakini və aprel döyüşlərində şəhid olmuş mayor Aqşin Abdullayevin anası Dursun Cavadova artıq öz seçimlərini etdiklərini, 11 aprel tarixində xalqımızın layiqli oğlu Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Ardı Səh.7




# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Səbail rayonunda seçicilərlə görüşlər davam edir






### Əvvəli-Səh-6

11 aprel 2018-ci ildə ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı Badamdar qəsəbəsində seçicilərlə görüş keçirib.

Görüşdə çıxış edən Milli Məclisin deputatı, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin sədri Şəmsəddin Hacıyev son 15 ildə Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sistemli siyasi-iqtisadi islahatlar nəticəsində, əldə olunan tarixi nailiyyətlər və möhtəşəm uğurlar haqqında danışıb. Qeyd edib ki, 11 apreldə Cənab İlham Əliyevi, Onun siyasətini dəstəkləməklə, həm dövlətimizin, həm ailəmizin hər bir üzvünün, hər bir Azərbaycan vətəndaşının firavan həyatına, Azərbaycanın gələcək tərəqqisi və dinamik inkişafına səs verəcəyik.

Görüşdə çıxış edən Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli dövlətimiz tərəfindən bütün təbəqələrdən olan insanlara xüsusi diqqət və qayğı göstərildiyini, onların maddi-rifah halının yaxşılaşdırılması, həyat şəraitinin təmin edilməsi istiqamətində müvafiq tədbirlər görüldüyünü bildirdi. O, xüsusi olaraq vurğuladı ki, seçicilər Cənab Prezidenti dəstəkləyir, Onun daxili siyasətini bəyənir və bu siyasətin ölkəmizi işıqlı gələcəyə apardığını alqışlayırlar.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxışında Cənab İlham Əliyevin müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və xalqımızın rifahının yüksəldilməsi istiqamətindəki misilsiz xidmətlərindən, ölkə başçısının həyata keçirdiyi sosial-iqtisadi strategiya nəticəsində Azərbaycanın dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasında olmasından danışaraq, məhz bu möhtəşəm uğurların davam etməsi və Azərbaycanın qüdrətli ölkəyə çevrilməsi üçün seçiciləri aprelin 11-də keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə təbliğat qrupunun üzvləri Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Əvəz Bayramov, YAP Səbail rayon təşkilatının sədr müavini Əhliman Qarayev çıxış edərək, tarixin bütün dövrlərində Azərbaycanın heç vaxt indiki qədər güclü və müstəqil olmadığını qeyd edərək, seçiciləri Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

Səbail rayonunun gənc partiya fəalları Məhərrəm Məhərrəmli və Bəyim Nəbiyeva çıxışlarında hazırda Azərbaycanda yüksək intellektli, bacarıqlı, xalqına və müstəqil dövlətçiliyinə, milli-mənəvi dəyərlərimizə sadiq vətənpərvər gəncliyin formalaşdığını və gənc nəslin, məhz bu ruhda böyüdüyünü qeyd edərək, müasir Azərbaycan gəncliyinin üzərinə düşən yüksək məsuliyyət və başlıca vəzifələr haqqında danışıblar. Qeyd olunub ki, Səbail gənclərinin 11 aprel günü seçki məntəqələrinə gələcək, özünün vətəndaşlıq mövqeyini və siyasi iradəsini nümayiş etdirəcək və qüdrətli Azərbaycanın inamlı sabahları üçün Liderimiz İlham Əliyevə səs verəcəklər.

## Binəqədi seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər






Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsində prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov bildirib ki, son 15 ildə ölkədə aparılan ardıcıl iqtisadi islahatlar və düşünülmüş daxili və xarici siyasət nəticəsində Azərbaycan Cənubi Qafqaz regionunun ən nüfuzlu dövlətinə çevrilib. Azərbaycan hökuməti 2003-cü ildən başlayaraq, 15 il ərzində ölkə iqtisadiyyatının neftdən asılılığını aradan qaldırmaqla sürətli inkişaf strategiyasını müəyyənləşdirdi. R.Göyüşov çıxışının sonunda bütün seçiciləri qarşıdan gələn Prezident seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvü publisist, şair Əkbər Qoşalı bildirib ki, müstəqil Azərbaycan dövlətinin quruculuq işlərinin geniş vüsət alması, iqtisadi sahədə misilsiz nailiyyətlərin qazanılması, ictimai-siyasi sabitliyə və vətəndaş həmrəyliyinə nail olunması, siyasi-iqtisadi cəhətdən güclü dövlətin yaradılması iki böyük dühanın, zəka sahibinin Ulu Öndər Heydər Əliyevin və dövlət başçısı Cənab İlham Əliyevin gərgin əməyinin bəhrəsidir. Ə.Qoşalı xalqımız üçün taleyüklü məsələ olan bu ilin 11 aprel tarixində keçiriləcək prezident seçkilərində bütün xalqımızı həmrəy olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

YAP Binəqədi rayon təşkilatının sədr müavini Tünzalə Zeynalova çıxışında qeyd edib ki, bu gün bütün sahələrdə Cənubi Qafqazın lider dövləti statusunu qazanmış və dünyanın ən nüfuzlu dövlətlərindən birinə çevrilmiş Azərbaycan öz iqtisadi və hərbi qüdrətinə arxalanaraq, işğal altındakı torpaqlarını bir neçə gün ərzində azad etmək iqtidarındadır. T.Zeynalova bütün seçiciləri dövlət başçısının ətrafında sıx birləşməyə və seçkilərdə fəallıq göstərərək, Ona dəstək olmağa dəvət edib. Görüşdə çıxış edən seçicilərdən İmaş Eyvazov, Elvin Əjdərli, Rüfət Orucov, Sultan Salmanov və başqaları Cənab İlham Əliyevə dəstəklərini ifadə ediblər və seçkilərdə Ona səs verəcəklərini bildiriblər.

## Qəbələ rayonunda "İlhamla irəli" şüarı altında təbliğat-təşviqat kampaniyası uğurla davam edir

Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatı bu ilin 11 aprel tarixində keçiriləcək prezident seçkilərinə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir. Dünən Qəbələ rayonunun Nic qəsəbəsində və Nohurqışlaq kəndinin seçiciləri ilə növbəti görüş keçirildi. Hər iki görüşü giriş sözü ilə YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov açaraq, qarşıdakı prezident seçkilərinin şəffaf və demokratik keçirilməsi məqsədilə hazırlıqla bağlı məlumat verdi.

Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Qüdrət Səmədov çıxış edərək, Cənab İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında böyük rolu, diqqət və qayğısını xüsusi vurğulayıb, Onun seçki proqramı barədə ətraflı məlumat verib. O, seçiciləri 11 aprel 2018-ci ildə keçiriləcək seçkilərdə Ulu Öndər Heydər Əliyev siyasətinə, bu siyasətin layiqli davamçısı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov prezidentliyə namizəd Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 15 il ərzində bütün sahələrdə dinamik inkişafa nail olunduğunu söylədi. Ermənistanın çox ağır iqtisadi-siyasi vəziyyətindən danışaraq, Azərbaycandakı uğurlu islahatlar və ordu quruculuğundakı yüksək nailiyyətlər haqqında ətraflı məlumat verdi. Millət vəkili dövlət başçısının siyasi iradəsi ilə işğal altındakı torpaqlarımızın tezliklə azad olunacağına əminliyini ifadə edərək, bütün seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırdı.





Görüşdə çıxış edən bir qrup seçici - Frans Vartanov, Rövşən Balayev, Venera Antonova, Emil Zəki, Robert Mobili, Əvəz Əhmədov, Oleq Danakari, Əhməd Məmmədov, Nizami İbrahimov, Səfər Səfərov, Sevda Sadıqova, Pərvanə Səmədova və Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Telman Abduxalıqov seçkilərə "İlhamla İrəli" şüarı ilə gedərək, Cənab İlham Əliyevi dəstəkləyəcəklərini və Azərbaycanın işıqlı gələcəyinə səs verəcəklərini bildirdilər.

## Göyçay seçiciləri parlaq gələcəyə səs verəcəklər





Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Göyçay rayonunun Mallı-Şıxlı kəndində seçicilərlə görüş keçirilib.

Ardı Səh. 10

# SOCAR - Azərbaycanın qlobal brendi, İlham Əliyevin şah əsəridir

## *SOCAR-ın prezidenti Rövnəq Abdullayevin yap.org.az-a müsahibəsi*



***- Rövnəq müəllim, istərdik ki, söhbətimizin əvvəlində bu gün Azərbaycanın qlobal brendi kimi çıxış edən SOCAR-ın müstəqillik illərində keçdiyi uğurlu yol barədə söhbət açasınız. Keçilən yolda hansı mərhələləri və məqamları xüsusi qeyd etmək istərdiniz?***

- Ötən əsrin 90-cı illərinin əvvəlində yerli neft hasilatçısı kimi fəaliyyətə başlayan Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti son 15 ildə ciddi sıçrayış edərək, neft və qaz biznesinin dəyər zənciri üzrə fəaliyyət göstərən və bütün dünyada həyata keçirdiyi nəhəng layihələri ilə tanınan, bununla da milli sərvətimizə əlavə dəyər qatan transmilli şirkətə çevrilmişdir. SOCAR-ın qlobal brendə çevrilməsinin son 15 il ərzində baş verməsi hər şeydən əvvəl Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev cənablarının müdrik daxili və xarici siyasəti sayəsində qazanılan uğurlarla sıx bağlı olub, ölkəmizin ümumi sosial-iqtisadi yüksəlişinin tərkib hissəsidir. Təsadüfi deyil ki, şirkətin fəaliyyətinə dair bütün strateji qərarlarda möhtərəm Prezidentimizin dəsti-xətti və imzası aydın şəkildə görünür. Son 15 ildə şirkət qarşısında yeni üfüqlər açılıb, möhtərəm Prezidentimiz də həmin tarixi imkanları düzgün qiymətləndirib.

Azərbaycanın neft-qaz sənayesinin, onun lokomotivi rolunu oynayan SOCAR-ın müstəqillik dövründə keçdiyi uğurlu inkişaf yolunu düzgün təhlil etmək üçün bu yolun hər bir mərhələsi respublikamızın ən yeni tarixinin müvafiq siyasi-iqtisadi kontekstlərinə uyğun şəkildə nəzərdən keçirilməlidir. Müstəqilliyimizin ilk illərində şirkətin qarşısında duran əsas vəzifələr bugünkündən fərqli idi. Əsas hədəfləri keçmiş Sovet İttifaqının süqutundan sonra ölkə iqtisadiyyatının dirçəlməsi üçün neft hasilatını artırmaq və dənizin dərinsulu hissəsində yeni yataqların işlənməsi üçün xaricdən investisiya və texnologiyaları cəlb etmək olan həmin dövrün taleyüklü hadisəsi - transmilli neft şirkətləri ilə Azərbaycanın milli maraqlarına cavab verən “Əsrin müqaviləsi”nin imzalanması idi. Təkcə ölkəmizin deyil, bütövlükdə regionumuzun simasını dəyişən qlobal əhəmiyyətli bu sənədin imzalanması, bütövlükdə, yeni neft strategiyasının hazırlanması və onun reallaşdırılmasına başlanması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. İqtisadi böhran və müharibə şəraitində olan ölkəyə xarici investorları cəlb etmək nə qədər çətin olsa da, Ümummilli lider bu vəzifənin öhdəsindən məharətlə gəldi. Bununla da ölkəmizin misilsiz sosial-iqtisadi inkişafının əsasını qoyuldu. Xüsusi qeyd etmək lazımdır ki, o zaman Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan İlham Əliyev cənabları xarici tərəfdaşlarla aparılmış gərgin danışıqlarda böyük diplomatik məharət göstərərək, “Əsrin müqaviləsi”nin imzalanmasında mühüm rol oynamışdır.

Yeni minillik və yeni əsr dünya və region ölkələri ilə yanaşı, Azərbaycanı da yeni və fərqli çağırışlarla üz-üzə qoyurdu. Möhtərəm Prezidentimiz ölkə iqtisadiyyatında apardığı dərin islahatlar çərçivəsində Azərbaycanın qalibiyyətli enerji strategiyasını zamanın aktual tələblərinə uyğun təkmilləşdirdi. Ölkənin maliyyə imkanları və beynəlxalq rəqabət qabiliyyəti yüksəldildi və Azərbaycan sərmayə cəlb edən ölkə olmaqla yanaşı, həm də xarici bazarlara sərmayə yatıran ölkəyə çevrildi. Müstəqil dövlətimizin strateji aktivi olan SOCAR bu tarixi missiyada lokomotiv rolunu öz üzərinə götürməklə, ölkə daxilində nəhəng ixracyönümlü sənaye layihələrini həyata keçirməyə, həm də xarici bazarları kəşf edərək, inamlı və qətiyyətli investor kimi perspektivli bazarlara daxil olmağa nail oldu. Şirkətin bu yeni biznes inkişafı strategiyası dövlətimizin müdrik başçısı İlham Əliyev cənablarının bizə göstərdiyi istiqamətləri və Onun gələcəyə baxışını əks etdirir.

İlham Əliyevin strateji baxışı daim dövlətin müstəqilliyi, xalqın yüksək rifahı prinsiplərinə əsaslanır. Azərbaycanı regionda güclü dövlətə, beynəlxalq müstəvidə iqtisadi və siyasi sahələrdə söz və nüfuz sahibinə çevirmək İlham Əliyev siyasətinin əsas hədəfləridir. Məhz bu istiqaməti əldə rəhbər tutaraq, Bakı-Tbilisi-Ceyhan boru kəməri istismara buraxıldıqdan sonra, iki qitə və 6 ölkəni birləşdirən, dünyada misli olmayan Cənub Qaz Dəhlizi meqa-layihəsinə start verildi. Cənub Qaz Dəhlizi beynəlxalq əhəmiyyətli vahid qaz magistralını yaradacaq, bütün tərəfdaş ölkələrin enerji təhlükəsizliyinə mühüm töhfələr verəcək. Bu layihə Azərbaycanın ixrac kəmərlərini şaxələndirərək, ölkəmizin ixrac marşrutlarının seçimi baxımından daha da müstəqilləşməsinə şərait yaradacaq və bunun nəticəsində tərəfdaşlarla aparılan bütün kommersiya danışıqlarında Azərbaycana əlavə üstünlük yaradacaqdır. Artıq bu il 4 seqmentdən ibarət bu möhtəşəm layihənin 3 seqmenti istifadəyə verilir və ölkəmiz möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi altında həyata keçirilən bu uzunmüddətli çalışmaların bəhrələrini görəcəkdir.

***- SOCAR-ın qlobal brendə çevrilməsini şərtləndirən amillər hansılardır?***

- SOCAR-ın transmilli, qlobal şirkətə çevrilməsi ilk növbədə şirkətin həyata keçirdiyi nəhəng transmilli layihələrdə, o cümlədən beynəlxalq emal və kimya layihələrində, qlobal neft və qaz ticarətinin genişlənməsində öz əksini tapmışdır. Bu səbəbdən, mövzuya uyğun olaraq, mən şirkətin fəaliyyətini məhz bu perspektivdən təhlil etmək istərdim. Lakin bunu da qeyd etməliyəm ki, şirkət öz ənənəvi fəaliyyət sahələri olan - kəşfiyyat və hasilat sahələrində də son dövrdə ciddi uğurlara imza atıb. Artıq SOCAR öz imkanları ilə müasir dərin dəniz özüllərini inşa edir, quraşdırır, istismar edir, böyük dərinlikdə qazma işlərini yerinə yetirir, yeni yataqları kəşf edir. Məhz kəşfiyyat və hasilat sahələrində əldə edilən uğur SOCAR-ın beynəlxalq investisiyaları, qlobal əməliyyatlarının genişlənməsi üçün şərait yaratmışdır.

Bu gün SOCAR dünyanın müxtəlif ölkələrində neft və qaz məhsullarının nəqli üçün zəruri olan magistral boru kəmərləri, gəmilər, liman terminalları kimi nəqliyyat vasitələrinə malikdir. Müasir qlobal infrastrukturun qurulması şirkətin dünya brendinə çevrilməsinin əsas şərtlərindən biri olub.

Eyni zamanda, səmərəli bir transmilli şirkət olmaq üçün SOCAR qlobal infrastrukturla yanaşı, həm də özünün sovetlər dövründən qalan inzibati idarəetmə üsullarından imtina etməli, struktur dəyişiklikləri aparmalı, kadr potensialını yeniləməli, maksimum səmərə ilə işləmək üçün bazar iqtisadiyyatının tələblərinə uyğunlaşmalı, bir sözlə, müasirləşməli idi. Bu vəzifələrin öhdəsindən gəlmək üçün dünyanın qabaqcıl məsləhətçi şirkətlərinin iştirakı ilə geniş miqyaslı araşdırma və təhlillər aparıldı və səmərələşdirici tədbirlər görülməyə başladı.

***- Bilirik ki, SOCAR davamlı inkişaf strategiyası həyata keçirir. İstərdik ki, bu barədə söhbət açasınız?***

- Yeni idarəetmə üsullarının tətbiqi çərçivəsində əməliyyatlarımızın dayanıqlığını təmin etmək üçün uzunmüddətli planlama, davamlı inkişaf strategiyası tərtib edilmiş və icrasına start verilmişdir. 2008-ci ildə dünyada baş vermiş qlobal böhrandan nəticə çıxararaq, belə qənaətə gəldik ki, sərmayə qoyuluşlarının şaxələndirilməsi, investisiyaların müxtəlif sahələrə yatırılması şirkətin bir məhsul növündən olan asılılığını azaldacaq, qlobal bazarlarda baş verən qiymət dəyişkənliyi riskini aşağı salacaqdır. Həmçinin yeni əməliyyat sahələrinin SOCAR-ın mövcud fəaliyyətləri ilə inteqrasiya edilməsi xammal xərclərinə qənaət olunmasına, nəticədə daha yüksək ümumi gəlirin əldə edilməsinə imkan verir. Apardığımız araşdırmalar bunu göstərirdi ki, emal və kimya sənayesinin artım tempi gələcəkdə yanacaq məhsullarına tələbatın artımından daha yüksək ola bilər. Müvafiq olaraq, neft və qaz müxtəlif zəruri plastik, rezin və məişət əşyalarının xammal mənbəyi kimi daha yüksək məhsəlat vəd edir. Beləliklə, 2008-ci ildən etibarən SOCAR neft və qaz emalı, eləcə də kimya sənayesinə sərmayələr yatırmağa başladı.

Bu istiqamətdə atılmış ilk addımlar “Azərkimya” İB-nin modernizasiyası və Türkiyədə ənənəvi kimya kompleksi “Petkim”in əsas səhm payının alınması oldu. Məlumdur ki, qardaş Türkiyə kimya məhsulları üzrə dünyada ən böyük bazar potensialına malik olan ölkələr sırasındadır. Digər tərəfdən, xam neftin qiymətinin kəskin düşdüyü son illərdə neft-kimya məhsullarının qiymətlərində daha yüksək sabitlik müşahidə olundu ki, bu da verilən qərarın düzgünlüyünü bir daha sübut etdi. SOCAR-ın idarəçiliyinə keçdikdən sonra “Petkim”in xalis mənfəəti 9,2 dəfə, səhmlərinin qiyməti isə 2008-ci ildən etibarən təqribən 8,7 dəfə artmışdır.

***- SOCAR-ın emal və kimya sənayesində reallaşdırdığı yeni investisiya layihələri haqqında da məlumat verməyinizi xahiş edirik.***

- Əldə olunan uğurları davam etdirmək üçün SOCAR emal və kimya sənayesində yeni investisiya layihələrinə də start verdi: Azərbaycanda “SOCAR Polymer” və “SOCAR Karbamid”, Türkiyədə isə STAR NEZ-in inşasına başladı. Türkiyənin əhali sayı ilə əlaqədar bazar potensialı yüksək olduğuna görə, STAR NEZ-in məhsulu əsasən qardaş ölkənin daxili bazarı üçün nəzərdə tutulur. Azərbaycanda inşa ediləcək yeni kimya müəssisələrinin məhsulları isə ölkəmizdə həmin məhsulların idxalını tam əvəzləyəcək. Azərbaycanda istehsal olunacaq məhsulun daha böyük hissəsi isə ixrac ediləcək, ölkəmizə əlavə gəlirlər gətirəcək. Qeyd etməliyəm ki, emal sənayesində məhz ixracyönümlü investisiya layihələrinin həyata keçirilməsi ilk növbədə ölkənin iqtisadi inkişafı üçün vacibdir. Buna görə Azərbaycanda bu layihələrin məhz Dövlət Neft Şirkəti tərəfindən reallaşdırılması vacib idi. SOCAR Polymer və SOCAR Karbamid zavodlarının inşası ölkədə aqrar sektorun, habelə kiçik və orta sahibkarlığın inkişafına münbit şərait yaradacaq. Ən keyfiyyətli azot gübrəsi olan karbamid bütövlüklə azot gübrəsinin idxalını əvəzləyə biləcək. SOCAR Polymer-in məhsulları isə birbaşa kiçik və orta sahibkarlar tərəfindən xammal kimi istifadə olunaraq, ölkəmizdə müxtəlif plastik istehlak məhsullarının istehsalı və deməli, qeyri-neft sektorunun inkişafı üçün zəmin yaradacaqdır. STAR NEZ, SOCAR Polymer və SOCAR Karbamid zavodlarının inşası artıq bu il tamamlanacaq, zavodlarda məhsul istehsalına başlanılacaqdır.

Ölkəmizin neft məhsulları ilə əsas təminatçısı olan, o cümlədən də, SOCAR Polymer zavodunu xammalla təchiz edən Heydər Əliyev adına Neft Emalı Zavodunda geniş miqyaslı yenidənqurma layihəsi həyata keçirilir. Layihənin məqsədləri respublikanı yüksək keyfiyyət standartına cavab verən dizel və benzin yanacağı ilə təmin etmək, zavodun istehsalat həcmini ildə 6 milyon tondan 8 milyon tona qədər qaldırmaqdır.

***- Rövnəq müəllim, nəzərdə tutulan genişmiqyaslı planları həyata keçirmək üçün hasilatın sabit saxlanılması da çox aktual məsələlərdəndir.***

- Elədir. Emal sənayesini xammalla təchiz etmək üçün Azərbaycan neftçilərinin qarşısında son illərdə duran əsas və-





# SOCAR - Azərbaycanın qlobal brendi, İlham Əliyevin şah əsəridir

zifə hasilatın səviyyəsini sabit saxlamaq olub. Məlumdur ki, Azərbaycanın neft sənayesi qədim tarixə malikdir. Bu səbəbdən Azərbaycan neftçiləri dünyada neft sənayesinin pionerləri kimi zəngin istehsalat təcrübəsinə sahibdirlər. Ancaq, hazırda SOCAR-ın balansında olan bir çox neft yataqları uzun illər ərzində istismar edildiyi üçün köhnəlməkdədir, bu da öz növbəsində həmin yataqlarda hasilatın təbii azalması ilə nəticələnir. Buna baxmayaraq Azərbaycan neftçilərinin böyük məharəti, təcrübəsi və səriştəsi nəticəsində biz bir çox köhnə yataqlarda neft hasilatını stabil saxlamağa, hətta ayrı-ayrı yataqlar üzrə son illərin ən yüksək hasilat göstəricilərini əldə etməyə nail olmuşuq. Bu, ilk növbədə qazma işlərinin genişləndirilməsi nəticəsində mümkün olmuşdur. Son 15 il ərzində 2 milyon metrdən çox qazma işi həyata keçirilmiş və 1222 yeni quyu tikinti ilə başa çatdırılaraq istismara təhvil verilmişdir. Axtarış-qazma işləri, məlum olduğu kimi, böyük xərclər hesabına başa gəlir. Dövlət şirkəti olaraq SOCAR-ın bu nailiyyətlərində şübhəsiz ki, dövlətimizin və möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının dəstəyi və bütün bu işlərə məharətlə rəhbərlik etməsi müstəsna önəm daşıyır. Bu xəttin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

***- Yeri gəlmişkən, yeni yataqların işlənməsi barədə nə deyə bilərsiniz?***

- Neftçilərimiz "Qarabağ", "Ümid-Babək", "Abşeron" və digər yeni perspektivli sahələrin işlənməsi sayəsində neft hasilatının sabit saxlanılması, qaz hasilatının isə artırılması əzmindədirlər. Yeni yataqların işlənməsi ilə bağlı artıq bir çox mühüm qərarlar verilib. Abşeron yatağında Total şirkəti ilə birgə işlərə start verilib, "Ümid" yatağının işlənməsinə başlanılıb. "Qarabağ" neft-qaz yatağının işlənmə planları üzrə əsas layihələndirmə mərhələsinə başlandı. SOCAR artıq öz imkanları ilə 6 min metrdən artıq dərinlikdə anomal yüksək təzyiqli və yüksək temperaturlu quyuların qazmasını uğurla həyata keçirir. Düşünürəm ki, yeni yataqlardan 2020-2021-ci illərdə ilk məhsulu əldə edəcəyik.

***- Bu gün dünya bazarına çıxarılan məhsulun brendləşdirilməsi də çox aktual məsələlərdəndir. Azərbaycan neftinin dünya bazarına müstəqil brend kimi çıxarılması və tanıdılması istiqamətində nə kimi işlər görülüb?***

- Azərbaycan neftinin dünya bazarında öz yerini tutması üçün onun düzgün brendləşdirilməsi vacibdir. Məhz bu səbəbdən möhtərəm Prezidentimiz İlham Əliyev cənabları Azərbaycan neftinin müstəqil brend kimi dünya bazarına çıxarılmasını qarşımızda məqsəd qoymuşdu. Neft məhsullarının istehlakçılara satışını birbaşa və əlverişli şərtlərlə təmin etmək, bu sahədən gəlirləri optimallaşdırmaq və satış fəaliyyətini mərkəzləşdirmək məqsədi ilə 2007-ci ildə İsveçrədə təsis etdiyimiz "SOCAR Trading" şirkəti qısa bir müddətdə dünyada özünü tanıdaraq, Cenevrə, Sinqapur, Türkiyə, BƏƏ, Nigeriya, Çin, Kanada, Vyetnamdakı bölmə və nümayəndəlikləri vasitəsi ilə yeni bazarlarda möhkəmlənmişdir. İlk mərhələdə "SOCAR Trading" yüksək keyfiyyətli "Azerilayt" neftini yüngül neft brendi kimi dünya bazarlarında tanıtmış, bununla Azərbaycana təkcə 2008-2013-cü illər arasında 1,8 milyard dollara qədər əlavə gəlir qazandırmışdır. Bu gün "SOCAR Trading" şirkəti sadəcə Azərbaycan neftini deyil, artıq daha çox üçüncü tərəflərin neft və neft məhsullarının ticarətini həyata keçirir. Törəmə şirkətimiz son 3 il ərzində üçüncü tərəflərdən alınıb satılan neft və neft məhsullarının həcmini 4 dəfədən çox artıraraq 21 milyon tondan 86 milyon tona çatdırmışdır. Ötən il əməliyyatların həcmini 2 dəfədən çox artıran "SOCAR Trading" 108 milyon ton neft və neft məhsulları satmağa müvəffəq olmuşdur.

***- Şirkətin fəaliyyəti ilə bağlı şəffaflığın artırılması, həmçinin risklərin azaldılması məqsədi ilə hansı tədbirlər görülür?***

- Tərəfdaşlarla və ictimaiyyətlə əlaqələr sahəsində, şirkətin kommersiya maraqlarını qorumaqla, şəffaflığın təmin edilməsi üçün hər il şirkət tərəfindən korporativ fəaliyyət haqqında təfsilatlı hesabatlar dərc edilir. SOCAR-ın davamlı inkişaf hesabatı, illik hesabat və maliyyə hesabatı nüfuzlu audit şirkəti Ernst&Young tərəfindən, mütəmadi olaraq, yoxlanılır və təsdiqlənir. Bütün fəaliyyətlərdə daha yüksək səmərə əldə etmək üçün şirkət üzrə daxili nəzarət və risklərin idarə edilməsi sistemi təşkil edilmişdir. Mövcud və planlaşdırılan fəaliyyətlərdə risklərin səviyyəsi daim xüsusi struktur bölmələri tərəfindən təhlil edilir, bütün fəaliyyətlərdə risklərin azaldılması üçün zəruri tədbirlər görülür. Şirkətin struktur bölmələrində mütəmadi surətdə daxili auditlər həyata keçirilir. Vəzifə səlahiyyətlərindən sui-istifadənin qarşısını almaq, şirkət üzrə kollektiv ruhunu gücləndirmək və vahid korporativ dəyərləri tətbiq etmək üçün SOCAR-ın korrupsiya ilə mübarizə üzrə siyasəti, biznes etikası məcəlləsi kimi icbari standard sənədlər qəbul edilmişdir. Bu sənədlərin icrasını təmin edən qaydalar və mexanizmlər tətbiq edilmiş, şirkətdə korrupsiya və səlahiyyətlərdən sui-istifadə ilə bağlı ehtimalların araşdırılması üçün işçilərə daxili qaynar xətt açılmışdır.

***- Ölkəmizdə Prezident İlham Əliyev insan kapitalının inkişafını əsas istiqamətlərdən biri kimi müəyyənləşdirib. Rəhbərlik etdiyiniz şirkətdə insan resurslarının idarə edilməsində hansı yeniliklər tətbiq olunur?***

- Şirkətdə İnsan Resursları Departamentinin yaradılması ilə vahid, səmərəli və şəffaf mərkəzləşdirilmiş işə qəbul mexanizmi yaradıldı. Nəqliyyat vasitələrinin koordinasiyası mərkəzləşdirilərək, vahid Nəqliyyat İdarəsinə həvalə edildi - nəticədə, boşdayanmaların sayı azaldı, nəqliyyatdan istifadənin səmərəsi artırıldı. Şirkət daxili idarəetmədə bütövlüklə rəqəmsal sənəd dövriyyəsinə keçdi. SOCAR artıq insan resurslarının idarəolunmasında və istehsalat proseslərində də SAP şirkətinin rəqəmsal texnologiyalarını geniş tətbiq edir, idarəetmənin səmərəsini daha da artırmaq üçün yeni rəqəmsal layihələr həyata keçirir. Rəqəmsallaşmanın növbəti mərhələsində İBM şirkətinin "Watson" kimi qabaqcıl süni intellekt texnologiyalarının tətbiqi, həmin texnologiyanın Azərbaycanın neft sənayesinin dünyada ən qədim, unikal məlumat bazası ilə əlaqələndirilməsi nəzərdə tutulur. Bunun sayəsində istehsalın səmərəsinin ciddi artırılması, yaradılan birgə müəssisə vasitəsi ilə həm SOCAR və bütün Azərbaycan üzrə, həm də regional sənayedə qabaqcıl texnoloji xidmətlərin göstərilməsi hədəflənir.

Beləliklə, SOCAR öz biznesinin dayanıqlığını təmin etmək üçün fəaliyyətlərini şaxələndirməyə başlamış, neft-kimya və qlobal neft ticarəti kimi yeni fəaliyyət sahələrinə uğurla qədəm qoymuşdur. Lakin dayanıqlı inkişafa nail olmaq üçün əməliyyat və struktur dəyişikliyi kifayət etmir. Dayanıqlı inkişafın əsas şərtlərindən biri də insanların inkişafı, səriştəli işçi qüvvəsinin davamlı formalaşdırılmasıdır. Buna görə də SOCAR son illərdə ölkə başçısının "neft kapitalını insan kapitalına çevirmək" tapşırığını rəhbər tutaraq, məhz insan kapitalının inkişafına ciddi sərmayələr qoyur.

***- Davamlı inkişafın təmin edilməsi üçün peşə təhsilinin keyfiyyətinin yaxşılaşdırılması, yüksək ixtisaslı kadrların hazırlanması da vacib şərtlərdəndir.***

- Hər bir iqtisadiyyatın dayanıqlı inkişafını təmin etmək üçün ölkənin təhsil sahəsində əsas iki şərtin yerinə yetirilməsi lazımdır: yüksək səviyyəli peşə təlimi və STEM (riyaziyyat, təbii elmlər, texnologiyalar, mühəndislik) fənlərinin populyarlaşması. Sovet iqtisadiyyatının süqutundan sonra təhsil sahəsində yaranan boşluqlardan biri də peşə təliminin çatışmazlığı olub. Bu boşluğu doldurmaq, şirkət və ölkə üçün beynəlxalq səviyyəli peşə kadrlarını hazırlamaq üçün SOCAR-ın tərkibində Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi (TTSİ) yaradıldı, dünyanın aparıcı peşə təlimi qurumlarının sertifikatları əsasında müxtəlif profilli peşə təlimi kursları tədris olunmağa başlandı. TTSİ ölkə iqtisadiyyatına hər il minlərlə yüksək səriştəli gənc peşəkar qazandırır. İdarənin təşkil etdiyi təlimlərdə iştirak etmiş vətəndaşlarımızın sayı bu il artıq 100 minə çatacaq.

Əvvəlki dövrdə respublikada humanitar fənlərin populyarlaşması müqabilində iqtisadi inkişafın dayağı olan STEM (texniki-təbiət) elmlər gənclər arasında nisbətən az maraqla qarşılanırdı. Yüksək səviyyəli beynəlxalq tədris proqramına əsaslanan Bakı Ali Neft Məktəbinin (BANM) yaradılması bu istiqamətdə mühüm bir dönüş yaradaraq, gənclər arasında mühəndislik, texnologiya və təbiət elmlərinə yenidən maraq oyatmağa nail oldu. Bu gün ölkəmizin parlaq zehinləri BANM-da təhsil alır. Ötən il BANM-da minimal qəbul balı 662 olmuşdur. Ali məktəbin ilk məzunlarının hamısı müxtəlif aparıcı şirkətlərdən iş təklifləri aldılar, əmək fəaliyyətlərinə uğurla başladılar. Bundan əlavə, SOCAR tərəfindən gənc nəslin keyfiyyətli, beynəlxalq standartlara uyğun təhsil alması, peşəkar kadrların hazırlanması istiqamətində müxtəlif daxili və xarici təqaüd proqramları həyata keçirilir. İndiyə qədər 300-ə yaxın gənc xarici təqaüd proqramına, 2000-ə yaxın tələbə isə açıq müsabiqədə qalib gələrək, daxili təqaüd proqramına cəlb edilmişdir.

***- Hazırda qlobal miqyasda ətraf mühitin qorunması ilə bağlı çağırışların aktuallığı da artıb. Bəs SOCAR bu istiqamətdə hansı proqramları reallaşdırır?***

- Dayanıqlı inkişafın bir önəmli şərti də ətraf mühitin qorunması və bərpasıdır. İlham Əliyev cənablarının göstərişinə uyğun olaraq, SOCAR son 15 il ərzində ölkəmizdə daha geniş vüsət tapan ekoloji hərəkatın ön sıralarında Bakıda və neft hasil olunan bölgələrdə ətraf mühitin durmadan yaxşılaşdırılması və atmosferə atılan çirkləndirici maddələrin və istilik effekti yaradan qazların azaldılması məqsədilə bir çox layihələr həyata keçirmişdir. Bu istiqamətdə SOCAR ilə BP şirkətləri arasında AÇG yataqlar blokunda keçirilmiş "Məşəldə yandırılan səmt qazı həcminin azaldılması" layihəsini misal gətirmək olar. Yalnız bu layihənin nəticəsində ildə təqribən 150 milyon m3-ə yaxın səmt qazının atmosferə atılmasının qarşısı alınmışdır. Ümumilikdə, görülən işlər nəticəsində son 7 ildə SOCAR üzrə çirkləndirici maddələrin miqdarında 16.7 %, istilik effekti yaradan qazların miqdarında isə 45 % azalma müşahidə olunmuşdur. 2006-cı ildən başlayaraq bu günə qədər SOCAR əməkdaşları Azərbaycanda daha əvvəlki dövrlərdə neft və neft məhsulları ilə çirklənmiş 1900 ha-dan artıq torpaq sahəsini rekultivasiya edərək bərpa etmiş, həmin sahələrdə 700 mindən artıq müxtəlif ağac və kol bitkiləri əkmişlər.

SOCAR-ın və ölkə iqtisadiyyatının dayanıqlı inkişafına yönəlmiş bütün bu uğurlar bilavasitə Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev cənablarının adı ilə əlaqədardır. Məhz Onun respublikamıza rəhbərliyi dönəmində şirkət yeni inkişaf mərhələsinə qədəm qoyaraq, öz fəaliyyətinin bütün sahələrində ciddi islahatlar aparmış, yeni fəaliyyət sahələrinin əsasını qoymuşdur. Cənab Prezidentin uzaqgörən strateji kursu SOCAR-ı qlobal brend səviyyəsinə qaldırdı və bizə - Azərbaycan neftçilərinə yeni tarixi missiyanı həvalə etdi: milli sərvəti çıxarmaqdan əlavə, həm də milli sərvətə əlavə dəyər qazandırmaq, sərvətə sərvət qatmaq. SOCAR-ın qədəm qoyduğu bu yeni dövrün ən vacib çağırışı dayanıqlı inkişafa nail olmaqdır. Neft və qazın çıxarılması nə qədər çətin və məsuliyyətli vəzifə olsa da, bu gün hasil edilən neftin bazarlarda optimal şəkildə təqdim olunması, emal zənciri vasitəsi ilə neft və qazdan çeşid-çeşid son istehlak məhsullarının, məişətdə çoxişlənən malların istehsal olunması, əldə edilən vəsaitlər hesabına yeni sənaye layihələrinin icrası, əlverişli beynəlxalq bazarların kəşf olunması SOCAR-ın dəyər zəncirində nailiyyətlərimizin davamlı olmasından xəbər verir. Qazanılan gəlirlər əlavə dəyər yaradacaqsa, inkişafımız dayanıqlı olacaq. Son 15 ilin təcrübəsi birmənalı şəkildə göstərir ki, dayanıqlı inkişafa aparan yolda məhz möhtərəm Prezident İlham Əliyev cənablarının siyasi bəsirəti və uzaqgörənliyi, Onun strateji rəhbərliyi bizim üçün yol göstərən məşəl olmuşdur. Əminəm ki, İlham Əliyevin müdrikliyi, iradəsi və rəhbərlik əzmi daim SOCAR-ı, Azərbaycan neftçilərini və bütövlükdə Azərbaycan xalqını yeni üfüqlərə və yeni uğurlara doğru aparacaq.

# Xalq İlham Əliyevə "HƏ" deyir!






## Sabunçuda möhtəşəm zirvə görüşü keçirildi

***Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon seçiciləri ilə "İLHAMLA İRƏLİ!" şüarı altında möhtəşəm zirvə görüşü keçirib.***

Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahı Sabunçu rayon şöbəsinin sədri Mehriban Abasquliyeva bildirib ki, Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Cənab Prezidentin siyasətinin mərkəzində insan amili dayandığını diqqətə çatdıran M.Abasquliyeva qeyd edib ki, son 15 ilin gerçəklikləri, əminliklə söyləməyə əsas verir ki, Prezident İlham Əliyev dövlət başçısı kimi, Ona bəslənilən ümidləri doğruldub və Özünü qətiyyətli və praqmatik siyasətçi kimi təsdiqləyib: "Azərbaycan dövlətinin və xalqının milli maraqlarını hər şeydən üstün tutan Cənab İlham Əliyev bütün Sabunçu rayon seçicilərinin alternativsiz namizədidir. 11 apreldə bütün seçiciləri bu siyasətə səs verməyə çağırıram. Cənab İlham Əliyevə səs vermək möhtəşəm nailiyyətlərin davamlı olmasına səs vermək, iqtisadiyyatımızın daha da inkişafına səs vermək deməkdir, vətəndaşlarımızın həyat səviyyəsinin daha da yüksəlməsinə, işğal altında olan torpaqlarımızın yaxın gələcəkdə azadlığına səs vermək deməkdir".




Tədbirdə millət vəkilləri Dilarə Cəbrayılova, Eldar Quliyev, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov, "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov çıxış edərək, bildiriblər ki, son 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf edən Azərbaycan təkcə Cənubi Qafqazın deyil, Qərblə Şərqin ortalığında yerləşən böyük bir bölgənin ən nüfuzlu dövlətlərindən birinə çevrilib: "Bu uğur Ulu Öndər Heydər Əliyev siyasi və iqtisadi kursunun davamçısı Cənab İlham Əliyevin 2003-cü ildən başlayaraq, apardığı düşünülmüş siyasətinin məntiqi nəticəsidir. Azərbaycanda aparılan müstəqil siyasət, uğurlu daxili islahatlar və balanslaşdırılmış xarici siyasət daha davamlı inkişafımıza əsaslı zəmin yaradır". Çıxış edənlər bu reallıqları nəzərə alaraq, aprelin 11-də seçiciləri seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış, xalqımızın alternativsiz Lideri Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Çıxış edən seçicilər Azərbaycanın bölgədə sabitlik və təhlükəsizlik məkanı olmaqla, aparıcı rola malik olduğunu bildirərək, əmin-amanlığın və sabitliyin davamlı olması üçün Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Zirvə görüşü konsert proqramı ilə davam edib.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Pirallahılıların seçimi İlham Əliyev Cənablarıdır!

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatında Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir. Kampaniya çərçivəsində Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatında rayonun seçiciləri ilə mitinq-görüş keçirilib.






Mitinq-görüşü YAP Mərkəzi Seçki Qərargahı Pirallahı rayon şöbəsinin sədri Hikmət Şikarov açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlardan, praqmatik daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edib. Hikmət Şikarov əlavə edib ki, Pirallahı rayonundan olan seçicilər aprelin 11-də keçiriləcək prezident seçkilərində, birmənalı tərzdə, Cənab İlham Əliyevə səs verəcəklər. Azad və demokratik prezident seçkiləri nəticəsində, xalqımız növbəti dəfə Cənab İlham Əliyevin parlaq qələbəsini bayram edəcək. Çünki Cənab İlham Əliyev xalqımızın alternativsiz lideridir.

Mitinq-görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının və partiyanın Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, əməkdar jurnalist Vüqar Rəhimzadə çıxış edərək, bildirib ki, ötən 15 ildə Möhtərəm Prezident Cənab İlham Əliyevin atdığı addımlar Azərbaycanın güclü dövlətə çevrilməsinə yönəlib.

"Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməklə ölkəmizin beynəlxalq aləmdə nüfuzunu, iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirən Cənab İlham Əliyev son on beş ildə hər bir vədini konkret əməli işi ilə təsdiqləməklə xalqın Ona olan inamını və etimadını daha da artırdı" deyən YAP Siyasi Şurasının üzvü V.Rəhimzadə qeyd edib ki, bu müddət ərzində, Cənab İlham Əliyevin həyata keçirdiyi irimiqyaslı layihələr əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması ilə bağlı imzaladığı fərman və sərəncamlar, onu deməyə əsas verir ki, bizim hər birimiz növbəti yeddi il ərzində də bu inkişaf strategiyasının uğurla davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməliyik. V.Rəhimzadə seçiciləri seçkilərdə fəal olmağa çağıraraq, "Bizim bir bayrağımız, bir gerbimiz, bir himnimiz və bir Prezidentimiz var. O da Cənab İlham Əliyevdir" deyib. Çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru Cəfər Cəfərov Azərbaycanın son 15 ildə Cənab İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi nailiyyətlərdən, ölkəmizin davamlı inkişafından və respublikadakı mövcud sabitlikdən danışıb. Çıxışının sonunda C.Cəfərov tədbir iştirakçılarını xalqın ən layiqli namizədi olan Cənab İlham Əliyevə səs verməyə çağırıb: "Əziz seçicilər, bu inkişafı davamlı etmək, balalarımızın xoşbəxt həyatı, əmin-amanlıq üçün, Azərbaycanın işıqlı gələcəyi naminə, Cənab İlham Əliyevə səs verək."

Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev çıxış edərək, ölkədə bütün sahələrdə sürətli inkişaf getdiyini diqqətə çatdırıb. B.Allahverdiyev qeyd edib ki, Cənab İlham Əliyev bütün fəaliyyətini Azərbaycan xalqının xoşbəxt gələcəyinə həsr edib. Pirallahı rayon Ağsaqqallar Şurasının sədri Fazil Məmmədov çıxışında rayon əhalisinin yaşlı təbəqəsinin güzəranından, dövlətin onlara göstərdiyi diqqət və qayğıdan söz açaraq, ağsaqqallar adından Cənab İlham Əliyevi dəstəklədiklərini bildirib. YAP Pirallahı rayon təşkilatının məsul əməkdaşı Günel Məmmədova çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin həyat və fəaliyyəti, eyni zamanda, ölkəyə rəhbərlik etdiyi illər ərzində gördüyü işlər, Azərbaycan



dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə sonsuz xidmətləri barədə ətraflı məlumat verib.

Mitinq-görüşdə çıxışçılar Cənab İlham Əliyevin ünvanına sürəkli alqış və "İlhamla irəli" şüarları səsləndiriblər.

# Azərbaycan gəncliyinin seçimi cənab İlham Əliyevdir



*YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucovun yap.org.az-a müsahibəsi*

**- Seymur müəllim, ölkəmiz prezident seçkiləri ərəfəsindədir. Azərbaycan gəncliyinin bu seçkilərə münasibətini necə ifadə edərdiniz?**

- Seçkilər hər bir dövlətin, xalqın həyatında mühüm hadisədir. Bu mənada, Azərbaycanda da hər zaman seçkilərə böyük önəm verilir, ölkə vətəndaşları bu prosesdə aktiv iştirak edir. Konstitusiyamızda vurğulandığı kimi, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Təbii ki, dövlət hakimiyyətinin formalaşdırılması bilavasitə xalqımızdan asılıdır. Xalqın seçdiyi hakimiyyət formalaşır və dövləti idarə edir.

Bu baxımdan, cəmiyyətimizin aparıcı təbəqəsi olan Azərbaycan gəncliyi də hər zaman seçkilərdə aktiv iştirak edib. 11 apreldə keçiriləcək prezident seçkiləri də bu baxımdan istisna təşkil etmir. Hesab edirəm ki, bu seçkilərdə gənclərimiz mövcud siyasətin uğurlu davamına səs verəcəklər. Çünki həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafı üçün böyük üfüqlər açır.

**- Ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin həyata keçirildiyini qeyd etdiniz. Bu uğurlar konkret faktlarda özünün əksini necə tapır?**

- Bildiyiniz kimi, hər bir ölkədə gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Bu mənada Azərbaycanda da gənclər cəmiyyətin bütün həyatında aktiv iştirak edirlər. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. Ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyinə hər zaman qayğı ilə yanaşırdı. Öz növbəsində, Azərbaycan gəncliyi də Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirir.

Bu gün də Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar.

Bilirsiniz ki, Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları həyata keçirilir. Bu proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir.

Dövlət başçısının Sərəncamı ilə gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən "Azərbaycan gəncliyi" Dövlət Proqramı təsdiq edilərək həyata keçirildi. Eləcə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" haqqında Sərəncamın imzalanması Azərbaycanda gəncliyə diqqət və qayğının davamlı bir siyasət olduğunu bir daha təsdiqlədi.

Bununla yanaşı, ölkə Prezidenti tərəfindən Gənclər Fondunun yaradılması, "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi də əhəmiyyətli addımlardandır. Xüsusilə qeyd etmək istəyirəm ki, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da gənclər üçün böyük perspektivlər açır. Təbii ki, bütün bunlarda məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Hesab edirəm ki, gənclər öz fəaliyyəti ilə dövlətin göstərdiyi etimadı doğrultmalıdırlar.

**- Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi prezident seçkiləri kampaniyasında hansı səviyyədə iştirak edir?**

- İlk növbədə qeyd etməliyəm ki, Yeni Azərbaycan Partiyası gəncliyin inkişafına yüksək diqqət yetirir. Təbii ki, partiyamızda gənclərin öz bilik və bacarıqlarının üzə çıxarılması üçün geniş imkanlar yaradılıb. Partiya rəhbərliyi intellektual, fəal gənclərin bir çox təşəbbüslərini dəstəkləyir və onların cəmiyyət həyatında daha aktiv iştirak etməsinə hərtərəfli dəstək göstərir. Bütün bunlara görə Azərbaycan gəncliyinin mütləq əksəriyyəti öz siyasi talelərini YAP-la bağlayırlar. Hazırda partiyada gənclərin təmsilçiliyi 40 faizə qədərdir. Bu gün partiyamızın üzvlərinin sayı 700 min nəfərdən çoxdur və yeni qoşulanların əksəriyyəti də məhz gənclərdir.

Prezident seçkiləri kampaniyasına gəlincə, əlbəttə ki, bu gün başlıca vəzifəmiz bu prosesdə aktiv iştirak etməkdir.

Bilirsiniz ki, fevral ayında Yeni Azərbaycan Partiyasının VI Qurultayı tarixi bir qərar qəbul etdi. Qurultay prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini irəli sürdü. Azərbaycan gəncliyi bu qərarı böyük sevinclə qarşıladı. YAP-ın VI Qurultayının belə bir qərar qəbul etməsi cəmiyyətdən gələn sosial sifariş idi.

Hesab edirəm ki, artıq ölkə gəncliyi seçki ilə bağlı öz qərarını verib. Xüsusilə, sosial şəbəkələrdə öz mövqeyini paylaşır və cənab İlham Əliyevin qələbə qazanacağına əmin olduqlarını vurğulayırlar.

Həmçinin qeyd etməliyəm ki, YAP Gənclər Birliyi seçki kampaniyasının təşviqat mərhələsində fəal iştirak edirlər. Gənclər partiyamızın fəal üzvləri kimi bütün seçki prosesinə, cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasının uğurla həyata keçirilməsinə öz töhfələrini verməyə çalışırlar. Sevindirici haldır ki, partiyamızın rəhbərliyi də bu prosesdə gənclərimizə yüksək etimad göstərir. Kampaniya çərçivəsində gənclər müxtəlif layihələr həyata keçirirlər ki, bu da ictimaiyyət, seçicilər tərəfindən böyük maraqla qarşılanır.

**- Seymur müəllim, prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərdə iştirak edirsiniz. Bu görüşlərdən təəssüratlarınız necədir?**

- Əlbəttə ki, təəssüratlarım çox yüksəkdir. Görüşlərdə vətəndaşlarımız böyük ruh yüksəkliyi ilə iştirak edirlər. Onlar qeyd edirlər ki, Azərbaycanın firəvan gələcəyi naminə Heydər Əliyev siyasətinə, bu siyasəti uğurla davam etdirən cənab İlham Əliyevə etimad göstərirlər.

O cümlədən, gənc seçicilərimizin mövqeyi də bundan ibarətdir. Mən əminəm ki, xalqımız bu dəfəki seçkidə də partiyamızın Sədri cənab İlham Əliyevə səs verəcək. Qələbəmiz çox yaxındadır. Mən bir daha hər bir vətəndaşı, o cümlədən gənclərimizi aprelin 11-də seçki məntəqələrinə getməyə və işıqlı gələcəyimiz naminə cənab İlham Əliyevə səs verməyə çağırıram. Xalqın bu seçimi Azərbaycanın uğurlarına sevinməyən, hər addımda ölkəmizə qara yaxmağa çalışan xarici və daxili qüvvələrə tutarlı cavab olacaq. İnanırıq ki, qarşıdakı 7 ildə də cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan möhtəşəm nailiyyətlərə imza atacaq.

## Sahibkarlar Cənab İlham Əliyevin namizədliyini dəstəkləyirlər



Bakı Biznes Mərkəzində "Modern İnkişaf və Ailə" İctimai Birliyinin təşəbbüsü ilə keçirilən görüşdə çıxış edən qeyri-hökumət təşkilatlarının, ictimai birliklərin, ziyalıların, elm adamlarının yekdil fikri bu oldu ki, daha qüdrətli Azərbaycanın gələcəyi yalnız Cənab İlham Əliyevin rəhbərliyi ilə birlikdə mümkündür.

Tədbirdə "Modern İnkişaf və Ailə" İB-nin sədri, YAP Qadınlar



Şurasının üzvü Zərifə Quliyeva çıxış edərək Ulu Öndər Heydər Əliyev irsinin tarixi əhəmiyyəti, Azərbaycan xalqına bəxş etdiyi müstəqilliyi, bu siyasəti davam etdirən Cənab İlham Əliyevin qətiyyəti ilə bağlı fikirlərini bildirərək, söylədi ki, yarandığı gündən xalqı ətrafında birləşdirməklə məqsəd və məramını milyonların istək və arzularına əsasən müəyyənləşdirən partiya ictimai-siyasi prosesləri dəqiq qiymətləndirən, düşünülmüş proqnozlarla dəyərləndirən bir siyasi təşkilat kimi fəaliyyətini demokrtiyanın tələblərinə uyğun tərzdə təkmilləşdirir: "YAP-ın yaranması ilə demokratiya, azadlıq və müstəqillik kimi çox önəmli amillər ölkəmizdə öz təcəssümünü tapdı".

Tədbirdə "Qarabağ Müharibəsi Veteranları və Şəhid Ailələri" İB-nin sədri Azər Quliyev, "20 Yanvar şəhidləri" İB-nin Nəsimi rayon şöbəsinin sədri Tofiq Allahverdiyev çıxış edərək Prezident, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna, şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan bəhs edərək, bildirdilər ki, aprel döyüşlərində Azərbaycan əsgərinin şücaətindən təşvişə düşən Ermənistan üzərində üstünlüyümüz müdafiə qüdrətimizin artması göstərir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, əməkdar artist Ağalar Bayramov Cənab İlham Əliyevə həsr olunmuş şeiri ilə dövlət başçımızın qüdrətli siması yaratdı.

Tədbirdə akademik Rəna Mirzəzadə, YAP Siyasi Şurasının üzvü, BDU-nun kafedra müdiri, tarix elmləri doktoru, professor, əməkdar müəllim İradə Hüseynova, YAP Yasamal rayon təşkilatı qadınlar şurasının sədri Tamella Şahbazova, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin modelləşdirmə kafedrasının dosenti, tanınmış rəssam, modelyer, əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova çıxış edərək ölkəmizdə uğurla davam etdirilən gender siyasətindən, qadın əməyinə göstərilən diqqətdən bəhs edərək, vurğuladılar ki, ölkə rəhbəri, partiyanın Sədri Cənab İlham Əliyevin həyata keçirdiyi strateji inkişaf xəttində prioritetlər hərtərəfli və əhatəlidir. Ölkəmizdə genişlənən sahibkarlara göstərilən diqqəti yüksək dəyərləndirən sahibkar Günel Məmmədhəsənova dövlət başçımız İlham Əliyevin ölkədə yaratdığı biznes mühitindən, iş adamlarının səmərəli fəaliyyəti üçün mövcud olan investisiya layihələrinin həllindən bəhs edərək, bütün sahibkarların 11 apreldə Cənab İlham Əliyevi dəstəkləyəcəklərini bildirdi. Tədbir bədii hissə ilə davam etdirildi.

## Musa Qasımlı: "Azərbaycanın beynəlxalq nüfuzu artıb"



"Müasir dünya siyasətində Qoşulmama Hərakatı müstəsna rol oynayır". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı deyib. Onun sözlərinə görə, 60-cı illərin əvvəllərində əsası qoyulan bu hərakat soyuq müharibə illərində, iki blok arasında gedən mübarizədə bir növ ortaq mövqe tuturdu: "Qoşulmama Hərakatının iştirakçısı olan ölkələr, dünya ərazisinin bəlli bir hissəsini təşkil edirlər. Dünya iqtisadiyyatında onların özünəməxsus payı var. Həmin dövlətlər dünya siyasətində bu və ya digər məsələlərin həllində öz mövqelərini ortaya qoyurlar. Qoşulmama Hərakatına üzv olan ölkələrin Azərbaycan ilə, münasibətlərinin inkişafı ölkə başçısının adı ilə bağlıdır. Bu hərəkatın toplantısının Azərbaycanda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun artmasının göstəricisidir".




səs ®
www.sesqazeti.az
facebook Ses Media Holding
7 aprel 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Zaqatalalılar güclü Liderə - Cənab İlham Əliyevə səs verəcəklər





11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahı Zaqatala rayon şöbəsi Göyəm kənd seçicilərilə görüş keçirib. Görüşdə 200 nəfər seçici iştirak edib.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsinin və rayon təşkilatının sədri Habil Qurbanov bildirib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan Möhtərəm Prezidentimiz İlham Əliyev hakimiyyətdə olduğu 15 il ərzində Azərbaycanı dünyanın aparıcı və lider dövlətinə çevirib: "Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin yorulmaz fəaliyyəti, gərgin zəhməti sayəsində dünyanın söz və nüfuz sahibi olan, hesablaşdığı dövlətlərdən biri olan Azərbaycanın nailiyyətləri, qələbələri və zəfərləri gündən-günə artır. Heç şübhəsiz ki, bunların da kökündə və mahiyyətində Cənab İlham Əliyevin müdrik və uzaqgörən daxili və xarici siyasət kursu, müstəqil dövlət siyasəti dayanır". H.Qurbanov seçiciləri prezident seçkilərində yaxından iştirak edərək, layiqli namizəd olan Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin deputatı Kamilə Əliyeva çıxışında bildirib ki, Cənab İlham Əliyev Azərbaycanı uğurlu gələcəyə aparan müdrik siyasətçidir və Onun yorulmaz fəaliyyəti nəticəsində, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib. Artıq bütün dünya dövlətləri ölkəmizi yaxın tərəfdaş qismində qəbul edir. O, bu uğurların davamı naminə hər bir seçiciləri 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırdı. Görüşdə çıxış edən təbliğat qrupunun üzvləri Əsgər Məmmədov, Gülnigar Məmmədova, Kəmalə Əhmədova, Xanım İsayeva və Namidə Süleymanova çıxışlarında Cənab İlham Əliyevi birmənalı olaraq, alternativsiz namizəd kimi gördüklərini qeyd edib, Azərbaycanın sürətli inkişafının gələcək təminatçısı kimi ölkə rəhbərinin uğurlu fəaliyyətini vurğulayaraq, hamılıqla Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Qobustan seçiciləri "İlhamla irəli" devizi altında Cənab İlham Əliyevə səs verəcəklər

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin üzvləri partiyanın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Təklə, Çuxanlı və Ərəbşalbaş kəndlərində seçicilərlə görüşlər keçiriblər.

Görüşlərdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev çıxış edərək, qeyd edib ki, bu gün ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng beynəlxalq layihələrin icrası və aparılan uğurlu iqtisadi proqramlar nəticəsində, ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrilib, vətəndaşlarımızın maddi rifah halı xeyli yaxşılaşıb, işsizlik 5 faizə enib, yeni-yeni iş yerləri açılıb və şaxələnmiş iqtisadiyyat inkişaf etdirilib.

F.Gülaliyev bildirib ki, Cənab İlham Əliyevə səs vermək sabitliyə, inkişaf və tərəqqiyə səs vermək deməkdir.





Görüşlərdə təbliğat-təşviqat qrupunun üzvləri Zümrüd Şərifova, Zaur Cəfərov və Tahir Səbzaliyev çıxışlarında Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə kənd təsərrüfatının inkişafında etdiyi tarixi inqilab haqqında geniş məlumat veriblər və qeyd ediblər ki, Cənab Prezidentimiz İlham Əliyevin Sərəncamı ilə verilən qərarların həyata keçirilməsi hər gün Azərbaycanın tərəqqisi deməkdir. Əsasən, əkinçiliklə məşğul olan Təklə, Ərəbşalbaş və Çuxanlı kənd camaatının ölkə Prezidenti Cənab İlham Əliyevin kənd zəhmətkeşlərinə olan diqqət və qayğısını hər an hiss etdiklərini nəzərə çatdıran natiqlər bildiriblər ki, kənd zəhmətkeşləri ölkə Prezidentinə minnətdardırlar və seçicilər yekdilliklə Cənab İlham Əliyevi dəstəkləyir və yekdilliklə Ona səs verəcəklər.

Görüşlərdə kənd sakinlərindən Əlövsət Məmmədov, Hacı Mahmud Həsənov, Məzahir Nəsirov və başqaları çıxış edərək, ölkəmizdə gedən sürətli inkişaf, həmçinin, Cənab İlham Əliyevin daim xalqımıza göstərdiyi yüksək diqqət və qayğı barədə danışıblar. Çıxış edənlər Azərbaycan xalqının YAP-ın Sədri İlham Əliyevə dərin inam və etimad bəslədiyini və qarşıdan gələn seçkilərdə fəal iştirak edərək, məhz Onun namizədliyini dəstəkləyəcəklərini, yalnız Ona səs verəcəklərini bildirdilər.

Cənab Prezident İlham Əliyevin növbəti dəfə qələbə qazanacağına əminlik ifadə edən tədbir iştirakçıları dövlətçiliyə hər zaman sədaqət nümayiş etdirən kənd seçicilərini 11 apreldə məntəqələrə gəlməyə, "İlhamla irəli" devizi altında birləşərək Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Ağdaşlıların seçimi Cənab İlham Əliyevdir

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Ağdaş rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdaş rayonunun səhiyyə işçiləri və eyni zamanda, Qaradeyin və Eymur kənd seçiciləri ilə görüş keçirib.

Görüşü giriş sözü ilə YAP Ağdaş rayon təşkilatının sədri, millət vəkili Cavid Osmanov açaraq Cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində həyata keçirilən işlər və qazanılan nailiyyətlər barədə öz fikirlərini bölüşüb. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dinamik inkişaf edən, demokratik, sosial-iqtisadi sahədə böyük nailiyyətlər qazanmış və yüksək beynəlxalq nüfuza malik ölkəyə çevrilmişdir. Azərbaycan Cənubi Qafqaz regionunun siyasi, iqtisadi, humanitar mərkəzi statusunu möhkəmləndirmiş, qlobal problemlərin həllində və beynəlxalq münasibətlər sistemini tənzimləyən qərarların qəbulunda ciddi rol oynamağa başlamışdır. C.Osmanov qeyd edib ki, bu günə kimi seçicilərlə keçirilən görüşlər, onu deməyə əsas verir ki, 11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd Cənab İlham Əliyevə səs verəcək.

Görüşlərdə çıxış edən millət vəkili Sabir Hacıyev bildirib ki, Azərbaycanda əhalinin rifahının yaxşılaşdırılması istiqamətində ölkəmizdə genişmiqyaslı sosial siyasət aparılır. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Millət vəkili seçiciləri 11 aprel prezident seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Millət vəkili Elman Nəsirov çıxışında Azərbaycanın qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrildiyini bildirib. Qeyd edib ki, vətəndaşlarımızın sosial rifahının yüksəldilməsi istiqamətində davamlı tədbirlər görülür. Artıq bütün dünya dövlətləri ölkəmizi yaxın tərəfdaş qismində qəbul edir. Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycan mütləq üstünlüklər əldə edib. Bütün bunlar Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilən siyasi kursun uğurlarıdır. Bu uğurların davamı naminə, hər bir seçicini 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.





Görüşlərdə Qaradeyin və Eymur kənd seçiciləri adından Rahilə İsayeva və Əlizadə Yusifov, səhiyyə işçiləri adından çıxış edən Firqət İsayev, Sədaqət Mustafayeva, Xəyalə Cəlilova və Müzəffər Abdullayev bildiriblər ki, ağdaşlılar Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti ürəkdən bəyənirlər. Bu səbəbdən də, onların başqa bir seçimi ola bilməz. Onlar öz seçimlərini bir daha təsdiqləmək üçün ayın 11-ni səbrsizliklə gözləyirlər.

## Xaçmazlılar "İLHAMLA İRƏLİ!" - deyir






Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində rayonun Yergüc, Üçgün və Sərkerli kənd seçiciləri ilə görüş keçirilib.

Ardı Səh. 13





# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-12

Görüşü YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov açaraq, partiyanın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərin uğurla davam etdiyini bildirib. Cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi ilə 2003-2018-ci illər ərzində Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən və sürətli iqtisadi inkişafa nail olmasından danışıb.

A.Heydərov rayonun Yergüc, Üçgün və Sərkərli kənd seçicilərini, son 15 ilin gerçəkliklərini nəzərə alaraq, 11 apreldə prezident seçkilərində fəal iştirak edərək, ölkəmizin gələcək inkişafına, Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamına səs verməyə çağırıb.

Tədbirdə çıxış edən seçicilərdən Süleyman Süleymanov, Fatma Fərzəliyeva, Pirəl Rəhimov, Süreyya Əmirova və başqaları qeyd ediblər ki, xaçmazlılar həmişə dövlətə, dövlətçiliyə və Prezidentimizə öz sədaqətlərini göstərmişlər. Onlar Möhtərəm Prezidentimizin ətrafında sıx birləşdiklərini vurğulayaraq, 11 aprel seçki günündə partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini və bununla da, ölkəmizin gələcək inkişafına səs vermiş olacaqlarını bildiriblər.

### Oğuzlular Cənab İlham Əliyevə səs verəcəklər





11 aprel prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsi Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Padar, Dəymədərə və Yemişənli kəndlərindən olan seçicilərlə görüş keçirib.

Tədbirdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Saleh Məhərrəmov bildirib ki, Azərbaycan dünyada demokratiya yolu ilə inkişaf edən, güclü iqtisadiyyata, yüksək beynəlxalq nüfuza malik ölkə kimi tanınır. Sabitlik, təhlükəsizlik, tolerantlıq dövlət siyasətinin prioritetini təşkil edir. S.Məhərrəmov seçiciləri 11 aprel prezident seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Emin Əzimli, Səyyaf Abbasov çıxış edərək, qeyd ediblər ki, son 15 il ərzində Azərbaycanın uğurlu və şərəfli yol keçdiyi beynəlxalq aləmdə də etiraf olunur. Natiqlər seçiciləri davamlı inkişaf naminə Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşdə çıxış edən kənd sakinləri Nüsrət Babayev, Əntiqə Tahirova, Əlyar Mütəllimov və Məşuqə Kərimova bütün seçiciləri dövlətimizin gələcək inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edən bu seçki prosesində fəal iştirak etməyə, aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

### Qarabağ veteranları Azərbaycanı uğurlu gələcəyə aparan Cənab İlham Əliyev siyasətinə səs verəcəklər





11 aprel prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdaş rayonunda yaşayan Qarabağ müharibəsi əlilləri və veteranları ilə görüş keçirilib.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin sədri, millət vəkili Cavid Osmanov ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-2018-ci illərdə Azərbaycanın qazandığı möhtəşəm tarixi nailiyyətlər, ölkəmizdə həyata keçirilən genişmiqyaslı və çoxşaxəli işlər, eləcə də, qarşıda duran strateji hədəf və məqsədlər haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan xalqının Lideri Cənab İlham Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirərək, onu müasir tələblər və çağırışlar nəzərə alınmaqla, daha da təkmilləşdirmişdir. Həm ölkə daxilində, həm də xarici siyasət sahəsində xalqımızın milli mənafelərinə müvafiq olaraq, həyata keçirdiyi genişmiqyaslı işlərin əhəmiyyəti və ölçüyəgəlməz miqyası ilə ümumxalq dəstəyi qazanmışdır. Ölkəmizdə ictimai-siyasi sabitlik, tolerant-multikultural mühit formalaşmış və sarsılmaz xalq-iqtidar birliyinə nail olunmuşdur. Bütün bu amillərə rəğmən, C.Osmanov seçiciləri fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən millət vəkili Sabir Hacıyev Möhtərəm Prezidentimiz İlham Əliyevin düşünülmüş, cəsarətli və uzaqgörən siyasəti nəticəsində, Azərbaycan 15 il ərzində, sözün əsl mənasında, iqtisadi və siyasi cəhətdən müstəqil, hüquqi və demokratik dəyərlərə əsaslanan qüdrətli dövlətə çevrilmişdir. İctimai-siyasi həyatımızın bütün sahələrini əhatə edən əsaslı islahatlar daha da dərinləşmiş və şaxələnmişdir. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının və geniş infrastruktur layihələrinin uğurlu icrasını nəzərə çatdıran S.Hacıyev bildirib ki, bunun nəticəsində ölkədə neft sektorundan asılılıq xeyli dərəcədə azaldılmış, bütün makroiqtisadi göstəricilər üzrə dinamik inkişafa nail olunmuşdur. Millət vəkili seçiciləri iqtisadi inkişafımıza, uğurlarımızın davamı üçün Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin deputatı Elman Nəsirov çıxışında bildirib ki, ötən 15 il ərzində Dağlıq Qarabağ probleminin həll olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası Cənab İlham Əliyev siyasətinin başlıca prioritetlərindən biri olaraq daima diqqət mərkəzində olmuşdur. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusu tamamilə yenidən qurulmuş, ən müasir silahlar və hərbi texnika ilə təchiz olunmuş, onun döyüş qabiliyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir. "Aprel döyüşlərində qazanılan möhtəşəm qələbə bunun real nəticəsidir", deyən millət vəkili əminliklə bildirib ki, Ali Baş Komandanımızın düşünülmüş siyasəti nəticəsində, böyük qələbə günümüz o qədər də uzaqda deyil. Bu gün ölkəmizdə Ulu Öndər Heydər Əliyev siyasəti yaşayır və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanı gələcəkdə daha da möhtəşəm uğurlar gözləyir. Azərbaycanın işıqlı, uğurlu və etibarlı gələcəyi üçün biz səsimizi yekdilliklə xalqımızın yeganə Lideri İlham Əliyevə veririk.

Görüşdə çıxış edən İsmayıl Xudiyev, İlham Beydullayev, Süleyman Məmmədhüseynov və Ağaşirin Hacıyev bildiriblər ki, onlar Prezident Cənab İlham Əliyevin ölkədə hər bir sahəyə xüsusi önəm verməsini, bütün təbəqədən olan insanlar kimi, Qarabağ müharibəsi əlillərinin və veteranlarının da ölkə başçısının diqqət və qayğısından kənarda qalmadıqlarını vurğulayıblar. Onlar əminliklə bildiriblər ki, ölkəmizin ərazi bütövlüyünü yalnız Cənab İlham Əliyev kimi qətiyyətli siyasi xadim təmin edə bilər və bunun üçün də aprel ayının 11-də yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

### Şamaxı seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər





Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Şamaxı rayonunda uğurla davam edir. Təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Hacılı və Qızmeydan kəndlərində keçirilən görüşlərdə YAP Mərkəzi Seçki Qərargahı Şamaxı rayon şöbəsinin üzvləri Ağarza Bayramov, Fatma Quliyeva, Hacıbaba Şıxıyev, Eyvaz Eminaliyev, Nəzakət Abdulrazaqova və Namik Rzazadə çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən qlobal layihələrdən, uğurlu siyasətdən, əldə olunan nailiyyətlərdən danışıblar və bu nailiyyətlərin, uğurların davamlı olması üçün 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyin vacibliyini vurğulayıblar.

Görüşlərdə çıxış edən Eyvaz Eminaliyev Azərbaycanda demokratik seçki ənənəsinin əsasının hələ 100 il əvvəl qoyulduğunu, Avropa ölkələrindən də əvvəl qadınlara seçki hüququ verildiyini, ölkəmizin öz müstəqilliyini bərpa edəndən sonra da demokratik dövlət quruculuğu yolunda inamla addımladığını qeyd edərək, seçiciləri prezident seçkilərində fəal iştirak etməyə, ən layiqli və alternativsiz lider Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Çıxışında Azərbaycanın apardığı siyasətin uğurlu olduğuna diqqət çəkən rayon təbliğat qrupunun üzvü Ağarza Bayramov, demokratiyanın mövcud olması üçün başlıca amilin sabitlik olduğunu və dünyanın bir çox ölkəsində olmayan bu amilin, məhz Azərbaycanda olduğunu, xüsusilə vurğulayaraq, bütün seçiciləri seçmək hüququndan istifadə etməyə, seçkilərdə fəal iştirak etməyə, demokratiyanın və bu sabitliyin davamlı olmasını təmin etmək üçün Cənab İlham Əliyevə səs verməyə dəvət edib.

Tədbirlərdə seçicilər adından çıxış edənlər 11 apreldə keçiriləcək prezident seçkilərində bütün seçiciləri hamılıqla Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Ardı Səh. 14




səs ®
w w w . s e s q a z e t i . a z
facebook Ses Media Holding
7 aprel 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Qusarlılar yekdilliklə Cənab İlham Əliyevi dəstəkləyəcəklər










**Əvvəli-Səh-13**

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi rayonun Urva, Çiləgir kənd seçiciləri və mədəniyyət işçiləri ilə görüşlər keçirilmişdir.

Görüşlərdə YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən mütərəqqi dövlət siyasətinin həyata keçirildiyini bildirərək, dövrün tələblərinə uyğun sistemli islahatların aparıldığını diqqətə çatdırıb: "Görülən tədbirlər dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin edib". Rayon təşkilatının sədri çıxışında 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Vətənini və dövlətini sevən hər bir vətəndaşı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə Milli Məclisin üzvü Azər Badamov, rayon şöbəsinin təbliğat-təşviqat qrupun üzvləri Nadirşah Şirinov çıxış edərək, səsvermə hüququ olan hər bir rayon sakinin fəallıq nümayiş etdirməsinin vacibliyini vurğulayıblar. Natiqlər, əmin olduqlarını bildiriblər ki, qusarlı seçicilər bu seçkilərdə də, birmənalı tərzdə, partiyanın namizədi Cənab İlham Əliyevi dəstəkləyəcəklər.

Seçicilər adından çıxış edən Zahir Mustafayev, Neva Abdurahmanova, Mütəllim Şamilov, Məzahir Tağıyev qeyd ediblər ki, onlar hər zaman Yeni Azərbaycan Partiyasının siyasi dəst-xəttini dəstəkləyiblər və bu gün də bu, belədir. Odur ki, aprel ayının 11-də Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər.

## Qubalılar Cənab İlham Əliyevin namizədliyini dəstəkləyirlər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba şöbəsinin seçki qərargahının üzvləri 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon təhsil və mədəniyyət işçiləri ilə görüş keçirilib.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahı Quba rayon şöbəsinin sədri Yusif Abidov çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyev müasir dövrün qarşıya qoyduğu siyasi-sosial sifarişlərin yerinə yetirilməsi üçün kompleks tədbirlər proqramının müəllifi kimi siyasi-iqtisadi sabitliyin möhkəmlənməsinə nail olub: "Bütün sahələrdə uğurlu islahatları həyata keçirən Cənab Prezident mədəniyyət, elm, təhsil sahəsinə də diqqət və qayğı göstərir. Yeni mədəniyyət ocaqlarının, təhsil müəssisələrinin inşası və bərpası ilə yanaşı, bu sahədə çalışan insanların maddi rifahının yüksəlməsi istiqamətində də tədbirlər həyata keçirilir". O, bu uğurların davamı üçün mədəniyyət və təhsil işçilərini seçkilərdə fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə Milli Məclisinin deputatı Ziyad Səmədzadə çıxış edərək, son illərdə Azərbaycanın dünyada sürətli inkişaf edən dövlətə çevrildiyini, dövlət başçısının həyata keçirdiyi tədbirlər sayəsində bütün sahələrdə, o cümlədən, mədəniyyət və təhsil sahəsində uğurlar qazanıldığını vurğulayıb. Z.Səmədzadə qubalı seçiciləri qarşıdan gələn prezident seçkilərində ölkəmizin dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləyərək, Onun ətrafında sıx birləşməyə çağırıb.

Görüşdə rayon təşkilatının təbliğat qrupunun üzvləri Həsən Günəşli, Elza Orucova, Hüseynağa Baxışov, Hüseyn Kərimov, Fuad Orucov, Rüfət Hacıyev və Habil Bayramlı və digərləri 11 aprel prezident seçkilərində yüksək fəallıqla seçki məntəqələrinə gələrək Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Ağcabədililər işıqlı gələcək naminə Cənab İlham Əliyevə səs verəcəklər





Ağcabədi rayonunda 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahı Ağcabədi rayon şöbəsinin təşkilatçılığı ilə YAP-ın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Sarıcalı, Poladlı, Taynaq, Boyat, Hacılar və Qaraxanlı kəndlərində seçicilərlə görüş keçirilib.

Görüşləri giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin sədr müavini Nazim Bünyatov açaraq, Cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu 15 il ərzində ölkəmizin iqtisadi inkişafı, çox böyük əhəmiyyət kəsb edən iri layihələrin həyata keçirilməsi, demokratik dəyərlərə söykənən dövlətin yaradılması və inkişaf etdirilməsi, əhalinin yaşayış səviyyəsinin ilbəil yaxşılaşması, bütün bölgələrin sosial-iqtisadi inkişafının təmin olunmasına xüsusi önəm verilməsi məsələlərini konkret faktlarla seçicilərin diqqətinə çatdırıb və seçiciləri aprelin 11-də Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə YAP Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin təbliğatçıları Radə Qafarova, Mehman Novruzov, Elşən İsmayılov, Yaqut Hüseynova və Anar Kərimli seçicilər qarşısında çıxış edərək, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən islahatlar barədə öz fikirlərini bildirərək, qarşıda hədəfə alınmış məsələlərin həlli üçün seçiciləri yenidən YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşlərdə Qabil Mehtiyev, Məhərrəm Şirinov, Xanım Xankişiyeva, Zəfər Röstəmov, Ceyhun Abbasov, Fazil Əliyev, Mütəllim Məmmədov, Seymur Əhmədov, Yavər Əliyev, Afət Sultanova, Telman Beşirov və Xəlil Rəhimov ağcabədili seçicilərin yekdil fikrini bəyan edərək bildiriblər ki, işıqlı gələcək, sabitlik, firavan həyat naminə, Cənab İlham Əliyevə yenidən səs verəcəklər.

## Yevlax şəhərində seçicilərlə növbəti görüş keçirilib






Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yevlaxda seçicilərlə görüşlər davam edir. Növbəti belə görüş isə Yevlax şəhər mərkəzində keçirilib.

Görüşdə YAP Yevlax rayon təşkilatının sədri, millət vəkili İlham Məmmədov qarşıdan gələn prezident seçkiləri ilə bağlı məlumat verib.

Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev çıxışında bildirib ki, bu gün hər bir Azərbaycan vətəndaşı məmnunluq hissi ilə dərk edir ki, ölkəmizin hərtərəfli inkişafı birbaşa Prezident, YAP Sədri İlham Əliyevin adı və həyata keçirdiyi siyasətlə bağlıdır. Çünki cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində Azərbaycan böyük və şərəfli inkişaf yolu keçib, möhtəşəm tarixi nailiyyətlər qazanıb.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli isə bildirib ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində görülən işlər nəticəsində Azərbaycanın hər bir rayonu, hətta kəndləri belə inkişaf etdirilib: "Əminəm ki, bu nailiyyətlərin davamlı olması üçün bütün seçicilər, o cümlədən yevlaxlılar aprelin 11-də Azərbaycan xalqının alternativsiz lideri cənab İlham Əliyevə səs verəcəklər".

Görüşdə çıxış edən seçicilər 11 apreldə cənab İlham Əliyevə səs verəcəklərini bəyan ediblər.

# Seçicilərin təlimi, vətəndaşlıq tərbiyəsi və hüquqları

Müşahidəçilər seçicilərin təliminin, mülki təlimin səviyyəsini və səmərəsini qiymətləndirməlidirlər. Seçicilərin seçkilərə münasibətdə hüquqları və vəzifələri barədə tam məlumatlılığını təmin etmək üçün seçicilərin hüquq mədəniyyəti səviyyəsi kifayət qədər artırılmalıdır. Bu cür səylər bilik səviyyəsini yüksəldər və seçkilərə marağı artırar, eləcə də, açıq debatlar üçün təməl qoyar.

Seçicilərin təlimi diqqəti konkret seçkilərə yönəltməklə keçirilməli və onlara harada, nə vaxt və necə səs vermək barədə informasiya çatdırmalıdır. Buna görə də, seçicilərə məlumatlar vaxtında verilməlidir ki, onlar bu informasiyadan islifadə edə bilsinlər.

Mülki tərbiyə - vətəndaşlara demokratik cəmiyyətin və mülki vəzifələrin əsaslarının öyrədilməsinin daha uzunmüddətli prosesidir. Mülki tərbiyə seçicilərdə mövcud olan seçki imkanları və müvafiq siyasi sistem çərçivəsində bu imkanlardan seçim vacibliyi üzərində cəmləşdirilə bilər. Siyasi partiyalar və mülki təşkilatlar mülki tərbiyə və seçicilərin təlimi sahəsində səylərə kömək edə bilsələr də, seçicilər üçün obyektiv və qərəzsiz informasiya hazırlanması, son nəticədə, hökumətin və seçki orqanlarının vəzifəsidir. Həmin informasiya əhalinin ənənəvi olaraq, ayrı-seçkiliyə məruz qalan (məsələn, azlıqlar) qrupları da daxil olmaqla, bütün seçicilərə çatdırılmalıdır.

Mümkün problemlər: seçkilərin gedişi barədə informasiya həddindən artıq gec alına bilər; hökumətin təqdim ediyi informasiya qərəzsiz olmaya bilər, məsələn, “informasiya bülletenləri”ni namizədlərdən birinin xeyrinə seçki bülletenlərinin doldurulması nümunəsi kimi təqdim edə bilərlər; bəzi qruplar informasiya almaya və ya onu başa düşməyə bilərlər.

Səs hüququ müəyyən yaş həddinə çatdıqdan sonra, bərabər əsaslarla ölkənin bütün vətəndaşlarına verilməlidir. Dövlət seçki siyahısı bütün seçıcilərin “bir nəfər - bir səs” qaydasına uyğun olaraq sadalandığı rəsmi sənədə çevrilir.

Seçicilərin siyahıları və prosedurlar seçicilər üçün aşkar olmalıdır. Buna görə də, siyahıdakı yanlışlıqlarla əlaqədar şikayətin bildirilməsi üçün seçicilərin siyahısı seçicilərə seçkilərə qədər çatdırılmalıdır. Mülkiyyətə, yaşa və yaşayış yerinə, müvəqqəti qaibə, dəqiqləşdirmə vasitələrinə, qeydiyyat formalarına, siyahı formalarına, siyahı layihəsinin dərc olunmasına, şikayət və apellyasiyaların verilməsi proseduruna, qeydiyyat qurtardıqdan sonra siyahının dərcinə, seçicilərin siyahılarla tanışlıq imkanları və hüquqlarına münasibətdə qeydiyyat, qeydiyyat vaxtı, təsnifat və siyahıdan çıxarılma metoduna aid bəzi qanunvericilik qaydaları əvvəlcədən nəzərə alınmalıdır.

Qeydiyyat prosesinin qiymətləndirilməsi seçicilərin qeydiyyatı zamanı əsassız məhdudiyyətlərin aradan qaldırılması üçün vacibdir. İrqi, cinsi, etnik mənsubiyyətə, dini etiqad, keçmiş siyasi əqidə, dil, savad səviyyəsi əmlak xasiyyətnaməsi, yaxud qeydiyyata görə pul ödəmək imkanı əlamətlərinə görə qoyulan məhdudiyyətlər əsassız sayılır.

Əsaslı məhdudiyyətlərə yaşayış yeri, vətəndaşlıq, azadlıqdan məhrumedilmə yerlərində olmaq, məhkəmənin qərarına görə əqli çatışmazlıq kimi amillər daxil edilə bilər. Bəzi ölkələrdə adamlar, bu amillərə uyğun olaraq, insan hüquqlarının ümumi prinsipləri pozulmadan seçki hüququnu həyata keçirməkdən kənarlaşdırıla bilərlər. Bununla yanaşı, vətəndaşlığa gəlincə, uzun müddət bir ölkədə yaşayan və defakto həmin ölkənin vətəndaşı sayılan şəxslərə seçkilərdə iştirak etmək üçün bərabər qeydiyyataalınma imkanı yaradılmalıdır.

Seçicilərin qeydiyyatı prosesi o zaman yaxşı nəticə verər ki, seçicilərin siyahısı müntəzəm olaraq təzələnsin. Tam kompüterləşdirilmiş siyahı hakimiyyət orqanlarına siyahıların yoxlanılmasında kömək edə bilər, bu minvalla da seçicilərin siyahısının mötəbərliyi təmin olunar. Buna baxmayaraq, bəzi ölkələrin seçicilərin kompüterləşdirilmiş siyahısını hazırlamaq üçün imkanı olmaya bilər. Buna görə də, ölkələrin malik olduğu şəraitdən asılı olaraq, qeydiyyat metodu müxtəlifdir.

Hər bir metod seçicilərin dəqiqləşdirilməsi və qeydiyyatı üçün müəyyən prosesə riayət olunmasını tələb edir. Ola bilər ki, seçkiqabağı təşviqat aparmaq üçün yekun qeydiyyat formaları ilə evbəev gəzmək zərurəti yaranır. Ola bilər ki, adlarını seçki siyahısına salmaq üçün əhalidən müvafiq seçki dairəsinin qeydiyyat mərkəzinə gəlməsini tələb etmək zərurəti yaranır. Seçki siyahısı, əhalinin siyahıya alınmasının nəticələrinə əsasən, yaxud digər dövlət qeydiyyat sənədlərinə görə də tərtib edilə bilər. Seçkilərarası dövrdə genişmiqyaslı mühacirət və daxili miqrasiya əhalinin tərkibində əhəmiyyətli dəyişiklik yarada bilər. Yaşayış yerlərini dəyişən xeyli miqdarda seçicilərin dəqiqləşdirilməsinin və qeydiyyatının çətinliyi ciddi texniki iş aparılmasını tələb edir. Seçicilər köhnə yaşayış yeri üzrə siyahıdan silinib, yeni yaşayış yeri üzrə siyahıya daxil edilməlidirlər.

Çoxdəfəlik qeydiyyatın qarşısının alınması üçün tədbirlər görülməlidir. Əgər seçicilər xüsusi seçki vərəqələri alırlarsa, bu vərəqələrin saxtalaşdırılmasının və çoxaldılmasının qarşısını almaq üçün tədbirlər həyata keçirilməlidir.

Seçkilər günü adları seçki siyahısında qeydiyyata alınmayan seçicilərə xüsusi sertifikatların verilmə sistemi seçicilərə səsvermədə iştirak etmək üçün əlavə imkan verir. Lakin bu, sui-istifadələr üçün açıq olan sistem doğurur. Seçki sertifikatlarından istifadə olunduğu hallarda müşahidəçilər seçicilərdən həmin sertifikatların harada və kim tərəfindən imzalandığını soruşmalıdırlar. Çoxdəfəlik səsverməyə yol verməmək üçün seçicilərin vəsiqələrində möhür olmalıdır, xüsusilə də, seçki siyahısı yoxdursa.

Bəzi hallarda seçicilərin rəsmi siyahısı mövcud olmaya bilər və səsverməyə mülki siyahı əsasında razılıq verilir. Bu cür hallarda mülki siyahı hamı üçün aşkar olmalıdır.

Müstəsna hallarda, seçicilərdən, bilavasitə səsvermə günü seçki məntəqəsində qeydiyyatdan keçmək tələb edildikdə, rəsmi qeydiyyat aparmamaq mümkündür. Bu cür hallarda çoxdəfəlik səsvermənin qarşısını almaq üçün pozulmayan mürəkkəbdən istifadə etmək, yaxud vəsiqəyə möhür vurmaq kimi xüsusi tədbirlərə əl atmaq olar.

1990-cı il Kopenhagen sənədinin 7.5 öhdəliyi vətəndaşlara ayrıseçkiliyə yol verilmədən siyasi, yaxud dövlət vəzifələrinə öz namizədliyini fərdi şəkildə və ya siyasi partiyaların və təşkilatların nümayəndəsi kimi irəli sürmək hüquqlarına riayət olunmasını təmin edir. Qanundan ayrı-ayrı siyasi qüvvələrə zərər vurmaq məqsədilə özbaşına, yaxud ayrı-seçkilik şəklində istifadə olunması ATƏT üzrə öhdəliklərə ziddir. Seçki hüququnun əsasında duran ümumi prinsiplər seçilmək hüququna da aid edilə bilər. Beləliklə, bütün siyasi qüvvələr və hərəkatlar öz namizədlərini bərabər əsaslarla irəli sürmək imkanına malik olmalıdır və irqi, cinsi, dil, dini etiqad, siyasi rəğbət, etnik, yaxud milli mənsubiyyət və iqtisadi status əlamətinə görə məhdudiyyətə məruz qalmamalıdır.

Seçilmək arzusunda olan şəxslərə haqlı məhdudiyyət - müəyyən müddət ərzində ölkədə yaşamaq, seçicilərin minimum miqdarda səslərini toplamaq, yaxud seçicinin minimum yaş həddindən yuxarı yaşa çatmaq tələbi ola bilər. Qeydiyyat tələbatı aydın və anlaşıqlı olmalı və buraya böyük məbləğdə ödəniş, yaxud qeydiyyat ərizələrində inandırıcı olmayan miqdarda adların mövcudluğu kimi ayrı-seçkiliyə səbəb olacaq tələblər daxil edilməlidir. Partiyanı, yaxud namizədi qeydiyyatdan keçirmək rədd edildikdə, apellyasiya hüququ mövcud olmalıdır.

Mümkün problemlər: partiyaların, yaxud namizədlərin haqsız kənarlaşdırılması, qanunvericilikdə seçicilərin bəzi qruplarına münasibətdə ayrı-seçkilik kimi hesab ediləcək qaydaların olması və namizədlərin qeydiyyatı cəhətdən qanunvericiliyin yararsızlığı.

ATƏT qarşısında öhdəliklərə görə bərabər təmsilçiliyin təminatı üçün bütün səslər eyni çəkiyə malik olmalıdır. Bu, o deməkdir ki, hər bir seçilmiş şəxs qeydiyyatdan keçmiş eyni miqdarda seçicini təmsil edir. Məsələn, majoritar seçkilər sistemində seçki məntəqələrinin ölçüləri arasındakı fərq 10 faizdən çox olmamalıdır. Proporsional təmsilçiliklə seçkilər sistemində isə seçki məntəqələrinin ölçüləri dəyişkən ola bilər, amma hər bir dairədən nümayəndələrin sayı elektoratın ölçüsünə proporsional olmalıdır.

Seçkilər haqqında qanun, hər bir dairədə seçicilərin sayını müəyyənləşdirərək seçki dairələrinin sərhədlərini çəkmək üçün ətraflı və bərabər meyarlar irəli sürməli, eləcə də, həmin sərhədlərin təbii, inzibati və tarixi ölçüsünü göstərməlidir. Seçki dairələrinin sərhədləri açıq bölünməlidir. Xüsusi olaraq, həmin məqsədlər üçün təyin edilmiş ekspertlər komissiyasının bu işi yerinə yetirməsi ideal olardı. Əks halda, sərhədlərin bölünməsinin siyasi bitərəflik prinsipinə uyğun olduğunu, yaxud seçmə, ayrıseçkilik və qərəzli tərzdə həyata keçirildiyini müəyyənləşdirmək çətin olardı. Səslərin hesablanması prosesi açıq və yoxlanış üçün məqbul olmalıdır. Namizədlərin nümayəndələri, yerli və beynəlxalq müşahidəçilər, eləcə də, kütləvi informasiya vasitələri mümkün olan yerlərdə, səslərin hesablanması da daxil olmaqla, bütün prosesi izləmək hüququna malik olmalıdırlar. Namizədlərin nümayəndələri, yerli və beynəlxalq müşahidəçilər, eləcə də, kütləvi informasiya vasitələri hər bir seçki məntəqəsinin rəsmi nəticələrinin nüsxələrini yaxud protokolları almaq hüququna malik olmalıdırlar. Nəticələr divarlardan asılmalı və əhalinin diqqətinə çatdırılmalıdır. Nəticələrin cəmlənməsi prosesi seçki məntəqələri səviyyəsindən tutmuş, regional səviyyəyə və yaxud mərkəzi seçki komissiyasınadək tanışlıq üçün açıq olmalı və müvafiq qanunlarda nəzərdə tutulmalıdır. Bülletenlərin nəqli şəffaf və təhlükəsiz olmalıdır. Əgər hakimiyyət orqanları nəticələri kompüterdə verirsə, beynəlxalq müşahidəçilər bu prosesə buraxılmalı və onu izləməlidirlər.

Müstəqil, qərəzsiz dövlət-hüquq instansiyasına apellyasiya hüququ seçki prosesinin bütün iştirakçılarına verilməlidir. Apellyasiya və şikayət verilməsi proseduru bu məsələdə sonuncu arbitr rolunu oynaya biləcək mübahisələrin nəzərdən keçirilməsi mexanizmi kimi müəyyən edilməlidir.

Müşahidəçilər seçki iddialarına baxan instansiyaların seçiminin necə baş verdiyini, tərkibinə kimlərin daxil olduğunu, onların məsuliyyət həddini və təsisat muxtariyyətini diqqət mərkəzində saxlamalıdırlar, belə ki, seçki prosesinin ədalətliliyi o zaman saxlanıla bilər ki, şikayətlərin nəzərdən keçirilməsi mexanizmi müstəqil və qərəzsiz olsun. Seçicilərin, yaxud namizədlərin təqdim etməsindən asılı olmayaraq, seçki prosesi ilə bağlı şikayətlərə eyni şəkildə və qanuni qaydada baxılmalıdır. Qaydalar və müddətlər seçki məcəlləsində dəqiq göstərilməlidir.

Həmçinin, bu şikayətlərin verilməsi, eləcə də, həmin məqsədlər üçün təsis edilmiş məhkəmə orqanları tərəfindən alınması üçün məqbul və müvafiq şərait yaradılmalıdır. Cavablar müəyyən müddət ərzində verilməli və bütün qərarlar qeydiyyatdan keçirilərək dərc olunmalıdır. Seçki kampaniyası aparıldığı prosesdə qeydiyyata alınan şikayətlər problemlərin göstəricisinə çevrilə bilər. Həmin problemləri sonradan UMM araşdırmalıdır.

Mümkün problemlər: şikayətə baxılmasının seçkilərdən sonrakı dövrə təxirə salınması, milli seçki orqanları nümayəndəsinin məhkəmə prosesinə gəlməməsi, prosedur qaydalarında şəffaflığın olmaması, yaxud ərizə təqdim edənlərə yanlış informasiya verilməsi.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə 7 aprel

## Şəki təhsil işçiləri Cənab İlham Əliyevə səs verəcəklər






11 aprel prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə 400 nəfər təhsil işçiləri ilə görüş keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü titanik işlərdən danışıb. Bildirib ki, Prezident İlham Əliyevin müdirik, məqsədyönlü siyasəti nəticəsində, son 15 ildə Azərbaycan çox böyük uğurlara imza atıb. O, əmin olduğunu bildirib ki, Şəki şəhər təhsil işçiləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə YAP Siyasi Şurasının üzvü, millət vəkili, Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, ADPU-nun Şəki filialının rektoru Rafiq Rəsulov və YAP Şəki təşkilatı aparatının baş məsləhətçisi Kamil Məmmədov çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə sonsuz xidmətləri barədə ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Tədbirdə təhsil işçiləri adından çıxış edənlər qərarlarının dəyişməd iyini və 11 aprel prezident seçkilərində seçki məntəqələrinə gedərək, Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## GUAM-ın qısamüddətli müşahidə missiyası aprelin 10-da Bakıya gələcək

GUAM-ın baş katibi Altay Əfəndiyevin rəhbərlik etdiyi təşkilatın müşahidəçilərdən ibarət nümayəndə heyəti Bakıya aprelin 10-da gələcək. Sechki-2018.az saytının xəbərinə görə, bu barədə təşkilatdan bildiriblər. Nümayəndə heyətinin səfərinin məqsədi aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkilərinin gedişini müşahidə etməkdir. Qeyd edək ki, GUAM-ın qısamüddətli müşahidə missiyası baş katib də daxil olmaqla, beş nəfərdən ibarətdir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Sabah qrupunun ibtidai təhsil fakültəsi üzrə II kurs tələbəsi Həşimova Gülşən Yaqub qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər Texniki İnventarlaşdırma Bürosu tərəfindən Kamilova Südabə Atababa qızına (ünvan: Bakı şəhər, İ.Qutqaşınlı küç, ev 45) verilmiş çıxarış (küpçə) itdiyi üçün etibarsız sayılır.




## Ucar seçiciləri: “Biz Cənab İlham Əliyevlə birlikdəyik”

*Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi Qarabörk kəndində Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində mitinq-görüş keçirib.*



Mintinq-görüşü giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin sədri Şəhla Abdullayeva açaraq, Cənab İlham Əliyevin misilsiz xidmətləri haqqında məlumat verərək, bildirdi ki, Ucar ictimaiyyəti, birmənalı şəkildə, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevi dəstəkləyir: “Böyük ruh yüksəkliyinin fonunda, qeyd edə bilərəm ki, Ucar seçiciləri növbəti dəfə Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə etimad göstərəcəklər. Bununla seçicilər inkişafı, firavanlığı və sabitliyi seçmiş olacaqlar”.



Görüş-mitinqdə təbliğat qrupunun üzvləri Milli Məclisin deputatı Vüsal Hüseynov və Rahib Rəsulov çıxış edərək, bildirdilər ki, hər bir seçici partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlı, ən azı Onu təbliğ etməyə gedən insanlar qədər məlumatlıdır və dəqiq mövqeyə malikdir: “Ölkə rəhbərinin fəaliyyətinin şəffaf olması, Onun gördüyü işlərin böyüklüyü, xalqın isə bu barədə yetərincə məlumatlı olması Cənab Prezidentin xüsusi təbliğata ehtiyacının olmadığını göstərir. Dövlət başçısı Öz təbliğatını əməlləri ilə yüksək səviyyədə təşkil edib. Buna görə də, hesab edirik ki, Cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz namizədidir”.

Görüşdə seçicilər adından Sabir Cəfərov çıxış edərək bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan inkişaf siyasəti Onun layiqli davamçısı olan Möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla və əzmlə davam etdirilir. Sözsüz ki, bütün bunlar ölkəmizdə mövcud olan sarsılmaz ictimai-siyasi sabitlik fonunda reallaşıb.



Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500